30 aprel 2021-ci il
№16 (8924)

www.muallim.edu.az
muallim@edu.gov.az

# AZƏRBAYCAN MÜƏLLİMİ

**Təhsil millətin gələcəyidir!**
*Heydər Əliyev*

Azərbaycan Respublikası Təhsil Nazirliyinin orqanı

# Təhsil prosesinin keyfiyyəti çox önəmlidir

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

**Bizim əsas istəyimiz odur ki, təhsilin keyfiyyəti artsın. Burada, əlbəttə ki, aparılan islahatların böyük rolu var. Bu islahatlar aparılır. Əminəm ki, yaxın gələcəkdə artıq gözəl nəticələr də olacaqdır. Eyni zamanda, təhsil prosesinin keyfiyyəti çox önəmlidir. Müəllimlərin hazırlığı burada xüsusi yer tutur. Əlbəttə ki, uşaqlar da yaxşı oxumalıdırlar. Uşaqlar başa düşməlidirlər ki, onların gələcəyi özlərinin əlindədir.**



## Təhsil İdarəçiliyi Beynəlxalq Konfransı başa çatıb

22-25 aprel tarixlərini əhatə edən Təhsil İdarəçiliyi Beynəlxalq Konfransı başa çatıb.

Təhsil İnstitutunun dəstəyi, Təhsil İdarəçiləri Assosiasiyası və T-Network təhsil işçilərinin təcrübə və kommunikasiya platformasının təşkilatçılığı ilə baş tutan konfransda 9 fərqli ölkədən yerli və beynəlxalq tədqiqatçılar, alimlər və təhsil işçiləri iştirak ediblər.

Təhsildə liderlik, keyfiyyətin təminatı, qiymətləndirmənin təşkili, planlaşdırma, təhsilin iqtisadiyyatı, distant təhsilin idarə olunması, inklüziv və xüsusi təhsil idarəçiliyi, peşə təhsili və idarəçilik, təhsilin idarə olunmasının beynəlxalq modelləri mövzularını əhatə edən konfrans Azərbaycan və ingilis dillərində aparılıb.

Təhsil idarəçiliyi mövzusunda ilk dəfə təşkil olunan konfrans "XXI əsrin tələblərinə uyğun təhsil" sahəsində qarşıda duran vəzifələri işıqlandırmaq məqsədi daşıyıb.

Konfransın açılış mərasimində çıxış edən Təhsil naziri Emin Əmrullayev qeyd edib ki, təhsilin idarə olunmasında məzmun, tədris və qiymətləndirmə kimi amillərə xüsusi önəm verilməlidir.

⇨Ardı səh.2

## Birinci sinfə şagird qəbuluna start verilir

Bu həftə *www.mektebeqebul.edu.az* elektron portal vasitəsilə 2021-2022-ci tədris ili üzrə ümumi təhsil müəssisələrinin birinci siniflərinə şagird qəbuluna başlanılıb. Ayın 27-dən başlayaraq ümumtəhsil müəssisələri üçün ölkə üzrə I sinfə onlayn qeydiyyata, aprelin 29-dan isə məktəb seçiminə start verilib. Artıq ölkə üzrə 17981 şəxsi kabinet yaradılıb, 14900 nəfərin məlumatları şəxsi kabinetlərinə daxil edilib.

Hazırda qeydiyyat və məktəb seçimi davam edir. Eyni zamanda, dövlət ümumi təhsil müəssisələrinin tədrisi digər dillərdə aparılan birinci siniflərinə qəbulla bağlı məktəbəhazırlıq qruplarına cəlb olunmuş və cəlb olunmamış uşaqların həmin dil üzrə şifahi nitq bacarıqlarının yoxlanılması məqsədilə təşkil ediləcək müsahibələrə yazılmaq mümkündür. Bu məqsədlə təşkil edilən müvafiq komissiyalar artıq fəaliyyətə başlayıb. Mayın 4-dən rus bölməsi üzrə müsahibələrə başlanılacaq. Bu il birinci sinfə qəbulla bağlı müsahibələr onlayn formada keçiriləcək. Növbəti tədris ilindən isə məktəbə qəbul prosesinin tam elektronlaşdırılacağı nəzərdə tutulub.

⇨Ardı səh.5




**Beynəlxalq Mendeleyev olimpiadasından daha 2 medal**

⇨səh.2



**"Müharibədə keçən hər dəqiqəm üçün qürur duyuram"**

⇨səh.9



**Xaricdə təhsil almaq üçün ən yaxşı ölkələr**

⇨səh.16

# H.M.Paşayevin 1-ci dərəcəli “Vətənə xidmətə görə” ordeni ilə təltif edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikasında təhsilin inkişafında uzunmüddətli səmərəli fəaliyyətinə görə Hafiz Mir Cəlal oğlu Paşayev 1-ci dərəcəli “Vətənə xidmətə görə” ordeni ilə təltif edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 29 aprel 2021-ci il*

# N.S.İbrahimovun Lənkəran Dövlət Universitetinin rektoru təyin edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Natiq Səhrab oğlu İbrahimov Lənkəran Dövlət Universitetinin rektoru təyin edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 23 aprel 2021-ci il*

# Təhsil Nazirliyinin saytı yenilənib

Təhsil Nazirliyinin rəsmi internet saytı müasir iş prinsiplərinin və innovativ yeniliklərin tətbiqi məqsədilə yenilənib. Sayt iki aya yaxın müddətdə test rejimində istifadəyə verilmişdi *(https://edu.gov.az).*

Saytda nazirliyin fəaliyyət istiqamətləri haqqında yenilənmiş məlumat bazası mövcuddur, həmçinin sayta bütün cihazlarda düzgün baxılması təmin edilib. Əsasən xidmət yönümlü olan saytda yeni funksional alətlərdən istifadə olunub. Yeniliklərdən biri də odur ki, oxucu gün ərzində sayta yerləşdirilən xəbərlərin sayını vizual olaraq görə biləcək.

Elektron və informativ xidmətə əlçatanlığın təmin edilməsi məqsədilə həmin xidmətlər əsas səhifədə yerləşdirilib. Sadə və müasir dizayn üslubda yenilənmiş sayta filtr üzrə axtarış sistemi, şəhər (rayon) təhsil şöbələrinin saytlarına keçid, “Şəxsi kabinet” kimi əlavələr edilib.

Saytın daha da təkmilləşdirilməsi istiqamətində işlər davamlı aparılacaq.

Qeyd edək ki, yenilənmiş saytda əvvəlki versiyaya da keçid əlavə olunub.

# Təhsil İdarəçiliyi Beynəlxalq Konfransı başa çatıb

⇦ Əvvəli səh.1

## Beynəlxalq qiymətləndirmələrdə şagirdlərimizin nəticələrində müsbət dinamika nəzərə çarpır

Nazir vacib məsələlər sırasında məktəbəqədər, inklüziv və icmaəsaslı məktəbəqədər təhsilin inkişafı və genişləndirilməsini diqqətə çatdırıb. Həmçinin, təhsilin keyfiyyətinin yaxşılaşdırılması istiqamətində görülən işlər sırasında beynəlxalq qiymətləndirmələrin əhəmiyyətindən danışan Təhsil naziri PISA, PIRLS və TIMSS kimi tədqiqatlar çərçivəsində Azərbaycandan olan şagirdlərin nəticələrində müsbət dinamikanın nəzərə çarpdığını bildirib.

Daha sonra Təhsil İnstitutunun direktoru Rüfət Əzizov çıxışında məzmunun yenilənməsi, gənclərin rəqəmsal bacarıqlarının artırılması və beynəlxalq qiymətləndirmələrdə irəliləyişlərin əldə olunması kimi məsələlərə toxunub. Tədrisdə məzmunun tərtibatı zamanı kritik düşüncə, ixtira, müzakirə və layihə əsaslı interaktiv dərslərin təşkili, fənlərarası inteqrasiya və müəllimlərin aidiyyəti üzrə ixtisaslarını artırması kimi vəzifələrin əsas götürüldüyünü qeyd edib.

Konfransda Azərbaycan Dövlət Pedaqoji Universitetinin (ADPU) rektoru Cəfər Cəfərov, Təhsil Nazirliyi yanında İctimai Şuranın sədri Şahlar Əsgərov, Bakı Şəhəri üzrə Təhsil İdarəsinin müdiri Mehriban Vəliyeva, nazirlik yanında İctimai Şuranın üzvü Asif Cahangirov, ADA Universitetinin prorektoru Vəfa Kazdal, ABŞ-ın Şərqi Karolina Universitetinin professoru Lewis Travis, Pakistanın Baltistan Skardu Universitetinin professoru Ashfaque Ahmad Shah, Şimali Kiprin Doğu Akdeniz Universitetinin professoru Hasan Şimşek, Cənubi Koreyanın İnha Universitetinin professoru Youngsoon Kim, finlandiyalı təhsilin idarə olunması üzrə mütəxəssis Petri Lounaskorpi, Qırğız-Türk Manas Universitetinin professoru Kürşad Yılmaz, Qazaxıstanın Narxoz Universitetinin professoru Dilbər Gimranova və digərləri çıxış ediblər.

Konfrans “Təhsildə Liderlik və idarəetmə”, “Təhsildə keyfiyyət”, “Distant təhsilin idarə olunması”, “İnklüziv təhsilin təşkili”, “Təhsilin idarə olunmasında Orta Asiya Təcrübəsi” sessiyaları ilə davam edib, ümumilikdə 65 məruzə dinlənilib.






# Lənkəran Dövlət Universitetinin rektoru kollektivə təqdim olunub

Aprelin 26-da Lənkəran Dövlət Universitetinin (LDU) rektoru vəzifəsinə təyin olunmuş Natiq İbrahimov universitetin kollektivinə təqdim edilib.

Natiq İbrahimovu kollektivə təqdim edən Təhsil nazirinin müavini Firudin Qurbanov universitetin Elmi Şurasının üzvlərini yeni rektorun tərcümeyi-halı ilə tanış edib.

Son 5 il ərzində LDU-da tələbə kontingentinin bir neçə dəfə artdığını, maddi-texniki bazanın gücləndiyini, tədris prosesinin keyfiyyətcə yaxşılaşdığını qeyd edən nazir müavini sadalanan istiqamətlərdə görülən işləri yüksək dəyərləndirib. Firudin Qurbanov LDU-nun cənub regionunun inkişafında mühüm rol oynadığından da söz açıb. Nazir müavini bildirib ki, zamanın tələblərinə cavab verən savadlı, eyni zamanda vətənpərvər kadrların hazırlanması universitetlərin, professor-müəllim heyətinin əsas vəzifəsidir və ali təhsil ocaqları bundan sonrakı fəaliyyətlərində regionun tələbatını nəzərə almaqla kadr hazırlığına üstünlük verməlidirlər.

Natiq İbrahimov da öz növbəsində ona göstərilən etimadı doğruldacağını bildirib.




# Beynəlxalq Mendeleyev olimpiadasından daha 2 medal

20-26 aprel 2021-ci il tarixlərində Rusiyada kimya fənni üzrə 55-ci Beynəlxalq Mendeleyev olimpiadası təşkil olunub. Sözügedən elm müsabiqəsində iştirak edən məktəblilərimiz uğurlu nəticə əldə ediblər. Belə ki, Türkiyə Dəyanət vəqfi - Bakı Türk liseyinin XI sinif şagirdi Xanım Yaqublu gümüş, BDU-nun nəzdində “Gənc istedadlar” liseyinin X sinif şagirdi Nəriman Şirinli isə bürünc medala layiq görülüb.

Məktəblilərimizi təbrik edir, növbəti müsabiqələrdə uğurlar arzulayırıq!

# Təhsil nazirinin videoqəbulu keçirilib

Aprelin 29-da təhsil naziri Emin Əmrullayev Ağcabədi, Beyləqan və İmişli rayon sakinlərini videobağlantı vasitəsilə qəbul edib. Qəbulda həmin rayonlarda müvəqqəti məskunlaşmış məcburi köçkünlər də iştirak ediblər.

Təhsil naziri vətəndaşların müraciət, şikayət və təkliflərini diqqətlə dinləyərək hər bir müraciətin operativ şəkildə araşdırılması, qaldırılan məsələlərin qanunvericiliyə uyğun həlli istiqamətində nazirliyin müvafiq aidiyyəti qurumlarının rəhbərlərinə konkret tapşırıqlar verib.



Videoqəbulda vətəndaşlar daimiləşmə, müəllimlərin yerdəyişməsi, təhsil haqqından azad olunma, həmçinin digər məsələlərlə bağlı müraciətlər ediblər.

Qeyd edək ki, videoqəbulun təşkil edilməsində əsas məqsəd vətəndaşların Təhsil Nazirliyinə müraciət imkanlarını müasir texnologiyalardan istifadə etməklə genişləndirmək, regionlarda yaşayanlara nazirliyin inzibati binasına gəlmədən vəzifəli şəxslərlə videobağlantı vasitəsilə birbaşa əlaqə imkanının yaradılmasıdır.

# Təhsil Nazirliyi kampaniyaya dəstək verməyə və əməkdaşlıq etməyə hazırdır

## "Erkən uşaqlıq dövrü inkişafı və Azərbaycanda Milli Eudi kampaniyası"nın təqdimatı olub



Aprelin 22-də "Erkən Uşaqlıq Dövründə İnkişaf (EUDİ) və Azərbaycanda Milli EUDİ kampaniyası"nın təqdimat mərasimi keçirilib.

Tədbir Heydər Əliyev Fondunun dəstəyi, "Regional İnkişaf" İctimai Birliyi (RİİB), Avropa İttifaqının Azərbaycandakı nümayəndəliyi, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi və BMT-nin Uşaq Fondunun (UNICEF) birgə təşkilatçılığı ilə baş tutub.

Tədbirdə çıxış edən Heydər Əliyev Fondunun Beynəlxalq əlaqələr departamentinin müdiri, Milli Məclisin deputatı Soltan Məmmədov EUDİ layihəsinin Azərbaycanın hər zaman tətbiqində yüksək siyasi iradə nümayiş etdirdiyi 17 davamlı inkişaf məqsədlərindən 11-nin uğurlu icrasına öz töhfəsini verəcəyini diqqətə çatdırıb. Soltan Məmmədov ölkəmizin Birinci vitse-prezidenti Mehriban Əliyevanın rəhbərliyi altında Heydər Əliyev Fondunun uşaqların sağlamlığı, təhsili və sosial təminatı istiqamətində genişmiqyaslı tədbirlər həyata keçirdiyini vurğulayıb.

Tədbirdə çıxış edən Təhsil nazirinin müavini Firudin Qurbanov son dərəcə vacib məsələyə həsr olunan tədbirdə iştirakçıları Təhsil Nazirliyi adından salamlayıb, təqdimat mərasiminə uğurlar arzu edib.

Heydər Əliyev Fonduna, Avropa İttifaqına, UNİSEF-ə təhsilin inkişafında, uşaqların inkişafına verdikləri diqqət və dəstəyə görə minnətdarlığını bildirən nazir müavini qeyd edib ki, tədbirin belə mötəbər tərkibdə keçirilməsi öz-özlüyündə məsələnin bütün cəmiyyətimiz üçün nə qədər vacib olduğuna işarə edir. Tədbir 2 əsas məsələni önə çəkir:

- *Birinci: uşağın düzgün inkişafına dəstək nə qədər tez başlasa, səmərəsi bir o qədər yüksək olacaq;*
- *İkinci: uşaqların erkən inkişafına dəstək yalnız ailənin və bir sahənin - təhsil və ya sosial sahə kifayət etmir. Burada bir çox sektorların birgə və nizamlı fəaliyyəti vacibdir.*

"Eyni zamanda etiraf edilməlidir ki, erkən yaş dövründə uşaqların inkişafında aparıcı rol böyüklərin üzərinə düşür. Onlar uşaqların inkişafı və optimal sağlamlığı üçün lazım olan bütün şərtləri təmin edir. Əsas şərtlərdən biri uşaqların tərbiyəsində iştirak edənlərin vahid pedaqoji yanaşmasıdır. Xüsusən ailədə hansı ki, uşağın tərbiyəsi ilə bir neçə nəfər məşğul olur: ana, ata, nənə və başqaları. Çox vaxt onların uşaqla davranışı bir-biri ilə razılaşdırılmır və daimi olmur".

F.Qurbanov sözlərinə əlavə edib ki, belə olduqda uşaq nə edəcəyini və necə davranacağını başa düşmür. Bəzi uşaqlar çox həssasdırlar, böyüklərin tələblərinə tabe olmurlar, daha güclüləri isə öz davranışlarını dəyişərək vəziyyətə uyğunlaşmağa çalışırlar, hansı ki, bu, onların imkanları xaricindədir.

Ona görə də çox mühümdür ki, uşaqlara tələblər nəinki ailədə, eyni zamanda, məktəbəqədər müəssisələrdə valideyn və müəllimlə razılaşdırılmaqla onların gücü yetəcək şəkildə tənzimlənməlidir.

Nazir müavini F.Qurbanov qeyd edib ki, uşaq inkişafının 4 əsas istiqaməti - fiziki, əqli, əxlaqi və estetik inkişafı dövlətin diqqət mərkəzindədir. Məktəbəqədər təhsilin həm əhatə dairəsinin genişləndirilməsi, həm də keyfiyyətinin yüksəldilməsi milli prioritetlərimizdəndir. "Təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nın tələbinə uyğun olaraq məktəbəqədər təhsilin son mərhələsi olan və 5 yaşlıları əhatə edən məktəbəhazırlığı təmin etmək məqsədilə Təhsil Nazirliyi hələ 2014-2015-ci illərdə pilot olaraq məktəblərin nəzdində 5 yaşlılar üçün məktəbəhazırlıq qrupları açdı. Müəllim müşahidələrinə əsaslanmış sadə tədqiqatlar sübut etdi ki, bu tədbirin balaca şagirdlərin həm öyrənmə fəaliyyətinə, həm də sosial bacarıqlarının inkişafına verdiyi səmərə yüksək olmuşdur. 2016-cı ildən etibarən isə məktəbəhazırlıq qruplarının dövlət büdcəsi hesabına açılması prosesinə başlanıldı. Məktəbəhazırlıq qruplarında 5 yaşlı uşaqların 90%-ni əhatə etmək hədəfinə bu gün biz çox yaxınıq. Cari tədris ilində məktəbəhazırlıq qruplarında 104000-dən çox 5 yaşlı təhsil alır.

Lakin biz anlayırıq ki, bütün 5 yaşlılarımızı məktəbəqədər təhsilə cəlb etmək hələ işin bir hissəsidir. Anlayırıq ki, məktəbəqədər təhsili əlçatan etməklə biz uşaqların erkən inkişafını təmin etmək hədəfində cəmi 1 yaş irəli getmişik. Növbəti hədəfimiz 3-5 yaş arasında olan kiçik vətəndaşlarımızın inkişafını dəstəkləmək olmuşdur. Bu məqsədlə Azərbaycan Respublikasının Təhsil İnstitutu UNİCEF-lə birlikdə 2018-ci ildə icmaəsaslı məktəbəqədər təhsil qrupları yaratmağa başladı. 50 icmada 50 qrupla işə başlanıldı və bu gün icmaəsaslı qruplarımızın sayı 179, oraya cəlb edilmiş uşaqların sayı isə 9373-dür.

Firudin Qurbanov qeyd edib ki, pandemiya bütün dünyada olduğu kimi, bizim təhsilimizə də ciddi zərbə vurdu: bu, danılmazdır. Amma özümüzdə güc tapıb problemin üzərinə gedirik. 2020-ci ilin 11 mart tarixindən məsafədən öyrətmənin təmin edilməsi məqsədilə teledərslər yayımlanmağa başladı. Vacib faktdır ki, efir vaxtında bəlli limiti olan layihədə məktəbəhazırlıq qrupundakı uşaqlar üçün də məşğələ yayımlanmağa imkan tapdıq. Bundan əlavə, həmin ilin may ayından etibarən icmaəsaslı məktəbəqədər qrupların uşaqları üçün məşğələlər yayımlanmağa başladı. Bu, həm də valideynlər üçün bir öyrənmə mənbəyi oldu.

Demək lazımdır ki, bu böhran dövründə valideynlərin üzərinə olduqca ağır yük düşdü. Həmin yükü azaltmağın bir yolu da Təhsilin İnkişafı üzrə Dövlət Strategiyasında hədəf kimi qoyulmuş "Səriştəli valideyn" proqramının hazırlanması və bütün əlçatan vasitələrlə - televiziya, radio, mətbuat - işıqlandırılmasıdır. Gənc valideynlərin səriştəsinin artırılmasına həm tibb sektoru, həm sosial sektor, düşünürəm ki, elə işəgötürənlər də dəstək olmalıdır. İşləyən gənc valideynlər üçün korporativ maarifləndirmə sessiyalarının təşkili faydalı ola bilər. Biz onu da vacib bilirik ki, bu maarifləndirmə sessiyaları ənənəvi olaraq yalnız analar üçün deyil, həm də atalar üçün keçirilsin.

Nazir müavini Firudin Qurbanov çıxışının sonunda diqqətə çatdırıb ki, Təhsil Nazirliyi olaraq erkən uşaqlıq dövründə inkişaf kampaniyasına hər vasitə ilə dəstək verməyə, bütün aidiyyəti sektorlarla bu sahədə ideya mübadiləsi aparmağa və əməkdaşlıq etməyə hazır olduğumuzu bir daha bildiririk.

Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Bahar Muradova EUDİ layihəsinin vacib və yüksək nəticəyə hesablanmış bir layihə olduğunu qeyd edib.

UNICEF-in Azərbaycandakı nümayəndəliyinin rəhbəri Edvard Karvardin, Avropa İttifaqının Azərbaycandakı nümayəndəliyinin rəhbəri Kestutis Yankauskas EUDİ layihəsinin Azərbaycan xalqına və gələcək nəsillərə töhfə verəcəyinə ümidvar olduqlarını bildirib.

Sonra erkən uşaqlıq dövründə inkişafla bağlı qısa videoçarx nümayiş olunub. EUDİ layihəsinin məqsədləri, layihə çərçivəsində yaradılmış *www.eudi.az* portalı, Erkən Uşaqlıq Dövründə İnkişaf Resurs Mərkəzinin fəaliyyəti, o cümlədən gələcəkdə nəzərdə tutulan digər fəaliyyətlər barədə ətraflı məlumat verilib.

Sonra *www.eudi.az* portalına həsr olunmuş videoçarx nümayiş olunub.

Tədbir müzakirələrlə davam etdirilib. Əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini Anar Kərimov, səhiyyə nazirinin müavini Rəhim Əliyev, İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin İdarə Heyəti sədrinin müavini Nigar Bayramova, TƏBİB-in İdarə Heyətinin sədri Ramin Bayramlı, Milli Məclisin deputatları Hicran Hüseynova, İlham Məmmədov, Müşfiq Məmmədlinin çıxışları dinlənilib. Çıxışlarda vurğulanıb ki, Azərbaycanda Erkən Uşaqlıq Dövründə İnkişaf (EUDİ) Dayanıqlı İnkişaf Məqsədlərinə nail olunmasında prioritet istiqamətlərdən biri kimi müəyyən edilib.

# Şuşanın memarlıq irsinin bərpa-eskiz layihələri

**Aprelin 21-də Azərbaycan Memarlıq və İnşaat Universitetində (AzMİU) Şuşa şəhərinin memarlıq irsinin bərpa-eskiz layihələrinin onlayn təqdimat mərasimi keçirilib. Beynəlxalq Abidələr və Tarixi Yerlər Gününə həsr olunmuş tədbirdə universitetin rektoru Gülçöhrə Məmmədova qonaqlara layihə barədə ətraflı məlumat verib. Rektor qeyd edib ki, memarlıq fakültəsində təhsil alan tələbələrin təşəbbüsü ilə ərsəyə gələn “Şuşa şəhərinin şəhərsalma inkişafı və tarixi memarlıq irsinin bərpası” layihənin hazırlanmasında əsas məqsəd Şuşanın nümunəsində tarixi şəhərlərin inkişafı və memarlıq irsinin qorunması, abidələrinin bərpasından ibarətdir.**




## Tələbələrin təşəbbüsü ilə hazırlanan layihələrin təqdimatı olub








Tədbirdə iştirak edən Təhsil nazirinin müavini Firudin Qurbanov bildirib ki, Azərbaycan xalqı bu gün çoxəsrlik tarixinin şərəfli mərhələsini yaşayır!

Azərbaycan xalqı Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Müzəffər Milli Ordumuzun Vətən müharibəsində tarixi qələbəsi və 30 ilə yaxın Ermənistanın işğalı altında saxladığı əzəli torpaqlarımızı azad etməklə, milli çağdaş tarixinə şanlı səhifə yazdı. Bu misilsiz qələbə həm də Qarabağ ərazilərinin bərpası, milli-mədəni irsimizin bərpasının və inkişafının təmin edilməsinin həyata keçirilməsinə əlverişli zəmin yaratmışdır.

F.Qurbanov xüsusilə qeyd edib ki, Qarabağın incisi, zəngin təbiəti və mədəniyyəti ilə seçilən Şuşa işğaldan azad edilib!

Şuşa Qarabağın tacıdır! Şuşanın azad edilməsi həm böyük siyasi, həm böyük strateji, eyni zamanda, çox böyük mənəvi məna daşıyır. Biz Şuşaya qayıtdıq, biz Şuşanı qaytardıq, biz Şuşada yaşayacağıq. 30 illik həsrətinə son qoyulur, - deyə dövlətimizin başçısı Ali Baş Komandan cənab İlham Əliyev qeyd edib.

Diqqətə çatdırılıb ki, 1992-ci ildə Şuşa şəhəri təcavüzkarların ciddi zərbəsinə məruz qalmış, Şuşa məscidləri, buradakı qədim qəbiristanlıq, böyük Azərbaycan şairi, Qarabağ xanının vəziri M.P.Vaqifin türbəsi, daş heykəllər, qədim qəbirlər, kurqanlar və digər tarixi abidələr dağıdılmış, daşınması mümkün olan mədəni sərvətlər Ermənistana aparılmışdır.

Hazırda qarşıda dayanan ən mühüm vəzifələrdən biri işğaldan azad olunmuş ərazilərimizin, Şuşa şəhərinin bərpasıdır və əminik ki, bu prosesdə Azərbaycan gəncləri fəal iştirak edəcəklər.

Nazir müavini qeyd edib ki, işğaldan azad olunmuş ərazilərdə mövcud problemlərin həlli üçün ciddi tədbirlər görülməli, maddi və mədəni irs nümunələrinin vəziyyəti təhlil olunmalı, memarlıq irsinin bərpa olunması məsələləri prioritet istiqamətlər arasında ön sıralarda olmalıdır. Ölkə başçısının tapşırıqlarına əsasən, Şuşada bərpa işlərinin aparılması ilə bağlı ciddi işlər həyata keçirilir. Bu baxımdan, Azərbaycan Memarlıq və İnşaat Universiteti tərəfindən Beynəlxalq abidələr gününə həsr olunmuş Şuşa şəhərinin memarlıq irsinin bərpası ilə bağlı eskiz layihələrinin təqdimatını yüksək qiymətləndiririk.

Şuşa şəhərinin bərpası istiqamətində tələbələrin hazırladığı eskizlər, eyni zamanda ölkəmizin mədəniyyət incisi olan Şuşa haqqında onlarda biliklərin artırılmasına, vətənpərvərlik ruhunun formalaşmasına və gücləndirilməsinə müsbət təsirini göstərəcək.

Firudin Qurbanov əminliyini ifadə edib ki, olduqca əhəmiyyətli məsələyə həsr olunan təqdimat milli-mədəni dəyərlərimizin qorunub saxlanmasına və gələcək nəsillərə ötürülməsində öz töhfəsini verəcəkdir.

Daha sonra Şuşa şəhərinin 2020-2040-cı illər üzrə baş plan layihəsi barədə danışılıb, tələbələrin iştirakı ilə görülən işlər izləyicilərə təqdim olunub. Təqdimatın sonunda layihənin nəticəsi kimi tələbələr müasir kompüter proqramlarından istifadə edərək Şuşaya ilk gediş marşrutunu təqdim ediblər.










Qeyd edək ki, tədbirdə Milli Məclisin deputatları - Hicran Hüseynova, Aydın Mirzəzadə və Hikmət Babaoğlu, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin rektoru Ceyran Mahmudova tələbələrin təşəbbüsünü dəyərləndirib, işğaldan azad olunmuş şəhər və kəndlərimizin yenidən qurulması, bərpası və inkişafı prosesində AzMİU-nun professor-müəllim, tələbə potensialından istifadənin vacibliyini vurğulayıblar.

# Birinci sinfə şagird qəbuluna start verilir

## Məktəbəhazırlıq qruplarına cəlb olunanlar müsahibədən uğurla keçdikdə birbaşa I sinfə qəbul ediləcəklər



⇦ Əvvəli səh.1

Qeyd edək ki, COVID-19 pandemiyasına görə ölkədə xüsusi karantin rejiminin tətbiq olunduğu nəzərə alınaraq tədrisi başqa dillərdə aparılan birinci siniflərə qəbul olanlar üçün təşkil edilən müsahibələr onlayn həyata keçirilir. Müsahibələr tədrisi başqa dillərdə aparılan birinci siniflərə qəbul olanların həmin dil üzrə yalnız şifahi nitq bacarıqlarının qiymətləndirilməsi üçün təşkil edilir. Müsahibə komissiyaları uşaqların təhsil almaq istədiyi dildə dinləyib anlamasına, ünsiyyət qura bilməsinə, öz fikrini sadə formada ifadə etməsinə diqqət yetirir. Qiymətləndirmə aparılarkən söz və ya söz birləşmələrini necə tələffüz etməsi, özü və ailəsi haqqında məlumat verməsi kimi meyarlar nəzərə alınır. Nəticələr müsahibədən sonra 3 gün ərzində bildirilir. Belə ki, bu barədə həm qeydiyyatdan keçirilən nömrəyə SMS bildiriş, həm də şəxsi səhifələrə məlumat göndərilir.

### Uşağını başqa dildə oxutmaq istəyənlərə xəbərdarlıq

Müsahibə qaydaları ilə bağlı Təhsil Nazirliyinin Ümumi və məktəbəqədər təhsil şöbəsinin müdir müavini Orxan Abbasov valideynlərə xəbərdarlıq edib. O, müsahibələr zamanı uşaqlara kömək etməməyi məsləhət görüb: “Onlar bununla övladını çaşdırır və psixoloji təzyiq edirlər. Valideynlər onlayn müsahibələrə qoşulmağa yardım edə bilərlər. Ancaq müsahibə zamanı edilən hər bir müdaxiləni işçilərimiz bilir. Bu, uşaqların nəticəsinin qənaətbəxş sayılmamasına səbəb ola bilər”.

Cavabları qənaətbəxş sayılan və müsahibədən uğurla keçən uşaqların valideynlərinin məktəb seçimi ilə bağlı sorğularını yerləşdirmələri iyunun 24-ü saat 11:00-dan etibarən mümkün olacaq. Məktəbəhazırlıq qruplarına cəlb olunanlar isə müsahibədən uğurla keçdikdə həmin məktəbdə birbaşa I sinfə qəbul ediləcəklər.

O.Abbasov müsahibədən kəsilən uşaqların yenidən Azərbaycandilli məktəblərə sənəd verə biləcəyini vurğulayıb.

Müsahibələr iyunun 14-dək davam edəcək.

Rus bölməsi üzrə birinci sinfə ərazi üzrə qəbul aparılan ümumi təhsil müəssisələrinə məktəb seçimi üçün qeydiyyat iyulun 12-də bitir. İyulun 19-dan birinci siniflərinə prioritetlər üzrə məktəb seçimi etmiş və müsabiqədən uğurla keçən şagirdlər üçün müəllim seçimi başlayacaq.

Birinci sinfə qəbulla bağlı elektron qeydiyyat prosesi sentyabrın 14-də başa çatacaq.

### Lisey və gimnaziyalar: öncə müsahibə, sonra müsabiqə

İyulun 5-dən 15-dək Təhsil Nazirliyinin birbaşa tabeliyində olan ümumi təhsil müəssisələrinin birinci siniflərinə qəbulla bağlı müsabiqələr keçiriləcək. Müsabiqəyə yazılmaq üçün artıq qeydiyyat başlayıb. Xatırladaq ki, Təhsil Nazirliyinin birbaşa tabeliyində olan Bakı Avropa liseyi, Respublika İncəsənət Gimnaziyası və Bülbül adına Orta İxtisas Musiqi Məktəbinin Azərbaycan bölməsi üzrə birinci siniflərinə qəbulla bağlı müsabiqəyə yazılmaq üçün qeydiyyata da ayın 29-dan start verilib. Uşağının tədrisi digər dillərdə aparılan bölmədə təhsil almağını istəyən və bunun üçün lisey və gimnaziyaları seçənlər öncə şifahi nitq bacarıqlarının yoxlanılması üzrə müsahibə üçün qeydiyyatdan keçir, uşaq uğur qazanarsa, müsabiqəyə yazılırlar.

Təhsil Nazirliyinin Ümumi təhsilin təşkili və idarəolunması şöbəsinin əməkdaşı Elçin Kərimovun sözlərinə görə, müsahibə başa çatdıqdan sonra ərazi üzrə yaşayanlar lisey və gimnaziyalara birbaşa qəbul olunurlar. Qeyri-ərazidə yaşayanlar isə müsabiqədən keçməlidirlər.

Tədrisi digər dillərdə aparılan bölmə üzrə şifahi nitq bacarıqlarının qiymətləndirilməsi müsahibəsində uğur qazanmayan uşaqlar qeydiyyat ünvanına uyğun olan lisey və gimnaziyalarda Azərbaycan bölməsinə qəbul edilirlər. Qeydiyyat ünvanı həmin lisey və ya gimnaziyanın müəyyən edilmiş ərazisinə uyğun olmayanlar təhsil müəssisəsində yer olarsa, qəbul edilirlər. Belə ki, uşağın bacı və qardaşlarından biri həmin lisey və ya gimnaziyada təhsil almırsa və ya valideynlərdən (qanuni nümayəndə) biri həmin lisey və ya gimnaziyada işləmirsə “Növbə” bölməsini seçərək növbəyə yazılırlar.

### Məktəbəhazırlıqdan ibtidai təhsil səviyyəsinə

Yeni tədris ili üçün birinci sinfə qəbul məktəbəhazırlıq qruplarına qəbulu da diqqət mərkəzinə gətirib. Bu il I sinfə gedənlərin təxminən 70-75 faizinin məktəbəhazırlıq qruplarından cəlb olunduğunu nəzərə alsaq, məsələnin diqqətdə olmasının səbəbi aydın olar.

2020-2021-ci tədris ilində məktəbəhazırlıq qruplarına 104 min uşaq cəlb edilib. Artıq Azərbaycan dilində məktəbəhazırlıq qrupunda olan 94 min şagirdin I sinfə keçirilməsi təmin olunub. Məktəbəhazırlıq qruplarına cəlb olunan uşaqların cari il üçün elektron kabineti mövcuddur. Ona görə də elektron sistemdə valideyn və ya uşağın qanuni nümayəndəsinin yeni şəxsi kabinet açmasına ehtiyac yoxdur. Sadəcə həmin login və şifrə ilə məktəb seçimi etmək mümkündür.

Növbəti tədris ili üçün qeydiyyatın nə vaxt başlayacağı isə hələlik məlum deyil. Təhsil Nazirliyinin rəsmiləri bunun iyun-iyul aylarına çəkəcəyini bildirib. Belə ki, Ümumi təhsilin təşkili və idarəolunması şöbəsinin müdir müavini Orxan Abbasov davam edən pandemiya şəraitini əsas gətirərək vaxtın dəyişdiriləcəyi ehtimalını istisna etməyib.

### Şagird qəbulu: müraciətlərə operativ cavab verilir

Bir neçə ildir I sinfə qəbul *mektebeqebul.edu.gov.az* portalı vasitəsilə həyata keçirilir. Bu il prosesdə qarşıya çıxan problemlərin tez və operativ həll edilməsi, sualların vaxtında cavablandırılması üçün mövcud olan hər yola əl atılıb. Belə ki, Təhsil Nazirliyinin rəsmi internet saytının “Sual-cavab” bölməsinə *(https://edu.gov.az/az/faq)* “Virtual bələdçi” xidməti əlavə edilib.

Bundan başqa, Təhsil Nazirliyi birinci sinfə şagird qəbulu ilə bağlı “Whatsapp” hesabını da valideynlərin ixtiyarına verib. Beləliklə, valideyinlər *https://api.whatsapp.com/send/?phone=994512067848* linki vasitəsi ilə keçid edə, (+99451) 206-78-48 “Whatsapp” nömrəsindən maraqlandığı suala cavab tapa bilərlər.

Bakı Şəhəri üzrə Təhsil İdarəsində də Çağrı Mərkəzi yaradılıb. Odur ki, 2021-2022-ci tədris ili üzrə ümumi təhsil müəssisələrinin I sinfinə şagird qəbulu prosesinin həyata keçirilməsinə dair sualı və yaxud çətinliyi olan vətəndaşlar həftəiçi 5 gün “146-0” nömrəsini yığmaqla Çağrı Mərkəzi ilə əlaqə yarada bilərlər.

Ölkəmizdə şagird qəbulu qaydalarına uyğun olaraq, internet çıxışı olmayan vətəndaşlar üçün isə alternativ qeydiyyat mərkəzləri təşkil olunub.

Alternativ qeydiyyat mərkəzlərinin işi mövcud sanitar-epidemioloji vəziyyət nəzərə alınaraq, həm ənənəvi, həm də onlayn qaydada (“WhatsApp” nömrələr vasitəsilə) təşkil olunub. Belə ki, özü elektron qeydiyyatdan keçə bilməyən və ya internet resurslarına çıxış imkanı olmayan valideynlərə (iş günləri ərzində saat 10:00-dan 16:00-dək) müvafiq məktəblərdə yaradılmış, həmçinin “WhatsApp” müraciətlərinin cavablandırılması üçün təyin olunmuş işçi qrupları tərəfindən zəruri kömək göstəriləcək.

Daha operativ xidmət göstərmək üçün 12 rayon üzrə 27-si məktəblərdə, 4-ü onlayn olmaqla, ümumilikdə 31 Alternativ qeydiyyat mərkəzi (*https://baku.edu. gov.az/az/page/276)* müəyyən olunub.

Qeydiyyat mərkəzlərinə gələ bilməyən valideynlər üçün 4 WhatsApp nömrəsi vasitəsilə onlayn müraciətlər qəbul edilir. Həmin nömrələr aşağıdakılardır:

| | |
|---|---|
| Binəqədi, Sabunçu və Yasamal rayonları üzrə: | (+994 51) 563-15-77 |
| Suraxanı, Xəzər və Pirallahı rayonları üzrə: | (+994 51) 543-15 -77 |
| Nərimanov, Səbail və Qaradağ rayonları üzrə: | (+994 51) 568-15-77 |
| Nəsimi, Nizami və Xətai rayonları üzrə: | (+994 51) 546-15-77 |

Xatırladaq ki, valideynlər digər bütün hallarla bağlı *www.mektebeqebul.edu.az* elektron portalında şəxsi kabinetlərindəki “Əlaqə” bölməsi vasitəsilə müraciət ünvanlaya bilərlər.

**Ruhiyyə DAŞSALAHLI**

**Son illərdə müasir səriştə və bacarıqlara malik təhsilalanların, dövrün mövcud çağırışlarına adekvat cavab verən mütəxəssislərin hazırlanması təhsil sistemləri qarşısında mühüm çağırış kimi çıxış edir. Məhz bu çağırışların təmin edilməsi keyfiyyətli insan kapitalının formalaşdırılması və dayanıqlı iqtisadiyyatın inkişafını şərtləndirən həlledici amillərdəndir. Təsadüfi deyildir ki, Azərbaycan Respublikasının Prezidenti tərəfindən təsdiq olunmuş “Milli Prioritetlər”də nəzərdə tutulmuş XXI əsrin təhsil sisteminin yaradılmasında şagirdlərimizin beynəlxalq qiymətləndirmələrdə iştirakının zəruriliyi qeyd edilir. Qiymətləndirmə tədqiqatlarından biri tezliklə keçirilməsinə srart veriləcək PIRLS - Oxu bacarığının inkişafı üzrə beynəlxalq tədqiqatıdır. Təhsil İnstitutunun Milli və beynəlxalq qiymətləndirmə tədqiqatları şöbəsinin aparıcı mütəxəssisi Zinyət Əmirova ilə söhbətimiz PIRLS tədqiqatına həsr olunub.**



# PIRLS 2021 tədqiqatı başlayır

## Zinyət Əmirova: “Tədqiqat təhsil sistemini yüksək bacarıqlara malik insan kapitalını formalaşdırmaq üçün yetərli əsaslarla təmin edir”

*- Bu il PIRLS Beynəlxalq tədqiqatın növbəti mərhələsi keçiriləcək. PIRLS nədir və nələri ölçür?*

- Oxu bacarığı bəlkə də uşaqların inkişaf etdirə biləcəkləri ən mühüm qabiliyyətdir və məktəbdə, daha sonra isə həyatda uğur qazanmaq üçün həlledici əhəmiyyətə malikdir. Oxu bacarığının inkişafı üzrə beynəlxalq tədqiqat (Progress in International Reading Literacy Study - PIRLS) dördüncü sinifdə oxu materiallarının qavranılmasının beynəlxalq qiymətləndirilməsidir və 2001-ci ildən başlayaraq hər beş ildən bir həyata keçirilir. PIRLS 2021 iyirmi illik bir dövrdə oxu nailiyyətlərinin tendensiyalarının müəyyən olunmasını təmin edən beşinci qiymətləndirmə tədqiqatıdır. Kompleks struktura əsaslanan PIRLS uşaqların dörd il ibtidai təhsil səviyyəsində təhsil aldıqdan sonra nə dərəcədə yaxşı oxuduqları haqqında beynəlxalq müqayisəli məlumatlar təqdim edir. Təhsil nailiyyətlərinin Qiymətləndirilməsi üzrə Beynəlxalq Assosiasiya (IEA) tərəfindən təşkil olunan PIRLS 60-dan çox ölkənin şagirdlərinin iştirak etdiyi qiymətləndirmə tədqiqatıdır. Azərbaycan bu tədqiqatın 2011-ci il və 2016-cı il dövrlərində iştirak etmişdir.

*- PIRLS milli təhsil sistemləri üçün nə kimi imkanlar yaradır?*

* PIRLS ölkələrin oxu tədrisinin təkmilləşdirilməsi üzrə faktlara əsaslanan qərarlar qəbul etməsinə imkan yaradır. Ölkələr öz milli təhsil sistemlərini inkişaf etdirmək məqsədilə nailiyyət testləri və sorğu məlumatlarından aşağıdakı kimi istifadə edirlər:
* Ölkə səviyyəsində nailiyyət trendlərinin izlənilməsi;
* Yeni və ya təkmilləşdirilmiş təhsil siyasətlərinin effektivliyinin müəyyən edilməsi;
* Oxu tədrisində zəif cəhətlərin meydana çıxarılması və kurikulum üzrə islahatların stimullaşdırılması;
* PIRLS nəticələrinin tədqiq və təhlili əsasında təhsil sisteminin inkişaf etdirilməsi;
* Digər siniflərdə bənzər qiymətləndirmə tədqiqatlarının təşkil olunması;
* Oxu bacarığının formalaşdırılması və oxunun tədrisini araşdıran tədqiqatlar əsasında zəngin məlumat bazasının formalaşdırılması.

*- Ötən illər ərzində bir neçə dəfə PIRLS qiymətləndirmələri keçirilib. Azərbaycanın bundan əvvəlki qiymətləndirmələrdəki göstəricilərini necə dəyərləndirirsiniz və tədqiqatın nəticələrini bu gün məktəb sistemimizdə görə bilirikmi?*

- Azərbaycan bu tədqiqatda ilk dəfə 2011-ci ildə iştirak edib. Tədqiqatın sonrakı dövrü 2016-cı ilə təsadüf edib və 2021-ci ildə keçirilməsi planlaşdırılır. PIRLS 2011 tədqiqatının nəticələri ilə müqayisədə 2016-cı ildə azərbaycanlı şagirdlərin “mükəmməl” səviyyəyə daxil olan payı 0 faizdən 2 faizə, Yüksək” səviyyə üzrə isə şagirdlərin nəticələri 9 faizdən 16 faizə yüksəlib. Başqa sözlə desək, ölkə üzrə bu 5 ildə “mükəmməl” və “yüksək” səviyyəyə uyğun nəticə göstərmiş ibtidai sinif şagirdlərinin sayında ikiqat artım müşahidə olunub. “Aşağı” səviyyəyə uyğun nəticə göstərmiş şagirdlərin payı 37 faizdən 27 faizə enib, yəni, 10 faiz azalıb. Məktəb sisteminə təsirinə gəldikdə isə PIRLS qiymətləndirmə tədqiqatında istifadə olunan mətn və sualların tərtib olunma forması Azərbaycanın ümumtəhsil müəssisələrində ibtidai siniflərdə müəllimlərin metodik tövsiyə xarakterli vəsaitlərinə daxil edilib. Şagirdlərin oxu bacarıqlarını ölçmək məqsədi daşıyan metodlar PIRLS standartlarına uyğun olaraq 4 müxtəlif idrak səviyyəsini nəzərə almaqdadır.

*- PIRLS 2021 tədqiqatı pandemiya dövrünə təsadüf edir. Builki qiymətləndirmədə nə kimi dəyişikliklər gözlənilir?*

- Bildiyimiz kimi, ötən il Nazirlər Kabineti tərəfindən COVID-19 infeksiyasına yoluxma halının qarşısının alınması, ölkə ərazisində yerləşən bütün təhsil müəssisələrində tibbi profilaktik, dezinfeksiyaedici və digər qabaqlayıcı tədbirlərin intensivləşdirilməsi məqsədilə tədrisin, təlim-tərbiyə prosesinin dayandırılması və bununla əlaqədar bütün tədbirlərin təxirə salınması barədə qərar qəbul edilib. Martın 3-dən bütün təhsil müəssisələrində tədris, təlim-tərbiyə prosesi mərhələlərlə tədris ilinin sonunadək dayandırılıb. Bununla əlaqədar olaraq, PIRLS 2021 üzrə planlaşdırılan tədqiqatın pilot mərhələsi ləğv edilib. COVID-19 pandemiyası səbəbilə cari ildə keçirilməsi gözlənilən əsas mərhələdə iştirakçı məktəb sayında da dəyişikliklər olub. Belə ki, Bakı, Sumqayıt, Gəncə, Şəki şəhərləri və Abşeron rayonunun ümumi təhsil müəssisələrində tədris və təlim-tərbiyə prosesinin distant (məsafədən) formada təşkili nəzərdə tutulub. Müvafiq olaraq, 52 bölgə üzrə 200 məktəbdə keçirilməsi nəzərdə tutulan qiymətləndirmə tədqiqatı 49 bölgə üzrə 115 məktəbdə təşkil olunacaq. Sanitar-gigiyenik tələblərin yerinə yetirilməsi üçün şagird sayı çox olan iştirakçı siniflərin yarımqruplara bölünməsi planlaşdırılır.

*- Azərbaycan 2021-ci il PIRLS tədqiqatına necə hazırlaşır?*

- 2019-cu ilin aprel-oktyabr aylarında PIRLS tədqiqatının pilot və əsas mərhələsi üçün məktəb seçimi təkmilləşdirilib və yekunlaşdırılıb. Bu mərhələdə məktəb seçimi üçün ilkin məlumat toplanıb. Proses əsnasında ölkə üzrə tədqiqatda iştirak edəcək məktəblərə, eləcə də həmin məktəblərdə oxuyan cari və gələcək 4-cü sinif şagirdlərinə dair məlumatlar və statistika işlənilib. 2020-ci ilin sentyabr-dekabr aylarında isə əsas mərhələ üçün materialların hazırlanması həyata keçirilib. Beynəlxalq mərkəz tərəfindən göndərilən bütün materiallar Azərbaycan dilinə tərcümə edilib, yoxlanılmış və gələn rəylər əsasında təkmilləşdirilib. Bununla yanaşı, PIRLS 2021 tədqiqatının əsas mərhələsində iştirak edəcək 200 məktəblə əlaqə saxlanılıb, iştirak haqqında razılıq əldə olunub. İştirakı müəyyənləşdirilmiş məktəblərdən növbə ilə cari 4-cü siniflərin, daha sonra qiymətləndirmə üçün seçilmiş şagirdlərin məlumatları alınıb və məktəblərə dair bütün məlumatlar vahid məlumat bazasında işlənilib.

Cari ilin aprel-may aylarında tədqiqatın Bakı, Sumqayıt, Gəncə, Şəki şəhərləri və Abşeron rayonu istisna olmaqla (pandemiya şərtləri ilə əlaqədar), 115 seçilmiş məktəbdən 127 sinifdə keçirilməsi planlaşdırılır. Bu siniflərdən 114-ü Azərbaycan, 13-ü rus bölməsini təmsil edir.

*- “Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər”də nəzərdə tutulan XXI əsrin təhsil hədəflərinə çatmaqda PIRLS və digər beynəlxalq qiymətləndirmələrin rolunu necə qiymətləndirərdiniz?*

- “Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər” sənədində reallaşması nəzərdə tutulan 3-cü prioritet - “Rəqabətli insan kapitalı və müasir innovasiyalar məkanı”na əsasən, gələcək illərdə dünyada artan rəqabətə hazır olmaq üçün hər bir ölkə yüksək rəqabətli insan kapitalını formalaşdırmağı hədəfləyir. Həmin prioritetin I bəndində beynəlxalq qiymətləndirmə tədqiqatları bilavasitə vurğulanmışdır: “Cəmiyyətin inkişafının təminatçısı olan ümumi təhsilin gücləndirilməsi üçün təhsil sistemində gedən modernləşmə davam etdirilməli, məzmun islahatları dərinləşməli, inteqrativ tədris təcrübəsi inkişaf etdirilməlidir. Bu əsasda ölkənin beynəlxalq qiymətləndirmələrdə (PISA, PIRLS, TIMSS, ICILS) mövqeyinin əhəmiyyətli dərəcədə yaxşılaşmasına nail olunmalıdır”.

Oxu istiqamətində ümumi təhsilin gücləndirilməsi üçün müəyyən dövrlər üzrə dəyərləndirmələrin aparılması və inkişaf trendinin müəyyənləşdirilməsi və ölçülməsi baxımından PIRLS beynəlxalq qiymətləndirmə tədqiqatının rolu olduqca böyükdür. Təlim-tədris prosesinin təkmilləşdirilməsi məqsədilə veriləcək qərarlar üçün PIRLS kimi tədqiqatlardan əldə olunan məlumatlar əsasında hazırlanmış tövsiyələr zəruridir. Eyni zamanda, PIRLS çərçivəsində tərtib olunan məktəb, müəllim, şagird və valideyn sorğuları şagirdlərin oxu qabiliyyətinə təsir göstərən amillər və təhsil sistemlərinin şagirdlərə yaratdığı imkanlar haqqında lazımi informasiya təqdim edir. Əlavə olaraq, tədqiqat zamanı milli kurikulum siyasətləri və oxu üzrə proqramlar, şagird öyrənməsini asanlaşdıran üsul və strategiyalar, şagirdlərin evdə və məktəbdə əhatə olunduqları mühit, məktəb vəsaitləri və sinifdaxili tədris araşdırılır. Tədqiqat dövrləri arasında aparılan müqayisəli təhlil isə təhsil sistemini qısa və uzun müddətdə yüksək bacarıqlara malik insan kapitalını formalaşdırmaq üçün yetərli əsaslarla təmin edir.

**Oruc MUSTAFAYEV**

**PIRLS 2021 iyirmi illik bir dövrdə oxu nailiyyətlərinin tendensiyalarının müəyyən olunmasını təmin edən beşinci qiymətləndirmə tədqiqatıdır. Kompleks struktura əsaslanan PIRLS uşaqların dörd il ibtidai təhsil səviyyəsində təhsil aldıqdan sonra nə dərəcədə yaxşı oxuduqları haqqında beynəlxalq müqayisəli məlumatlar təqdim edir.**

**Oxu istiqamətində ümumi təhsilin gücləndirilməsi üçün müəyyən dövrlər üzrə dəyərləndirmələrin aparılması və inkişaf trendinin müəyyənləşdirilməsi və ölçülməsi baxımından PIRLS beynəlxalq qiymətləndirmə tədqiqatının rolu olduqca böyükdür.**

# Ehtiyat dərsliklərin effektivliyinin qiymətləndirilməsi



## Tədqiqatın nəticələrinə əsasən bu dərsliklərdən istifadə edən şagirdlərin mənimsəmə göstəriciləri daha yüksəkdir

**İzzət BABAYEVA,**
*Təhsil İnstitutu, Milli və beynəlxalq qiymətləndirmə tədqiqatları şöbəsinin mütəxəssisi*

Gənc nəslin təlim və tərbiyəsində əsas bilik mənbəyi olan dərsliklər demək olar ki, bütün dövrlərdə təhsil sisteminin inkişafı üçün həyati əhəmiyyət daşımışdır. Ölkəmizdə dərslik siyasəti dünya təcrübəsinə əsaslanaraq təkmilləşdirilmiş və müasirləşdirilmişdir. Buna baxmayaraq, dərsliklərin hazırlanması prosesində hələ də bəzi çatışmazlıqlar mövcuddur. Bu çatışmazlıqların bəziləri keçirilən beynəlxalq qiymətləndirmə tədqiqatlarının nəticələrinə əsasən aşkar olunmuşdur. Müəyyən olunan çatışmazlıqları aradan qaldırmaq və təhsilimizi beynəlxalq standartlara uyğunlaşdırmaq məqsədi ilə "Ehtiyat dərslik" ideyası gündəmə gətirilmişdir. Məqalədə ehtiyat dərslik komplektlərinin hazırlanması, onların tətbiqi və effektivliyinin qiymətləndirilmə prosesi əks olunur. Ehtiyat dərsliklərin tətbiq edildiyi birinci sinif şagirdlərinin qiymətləndirmə tədqiqatındakı göstəricilərinin yüksək olması həmin dərsliklərin kütləvi istifadəsinə zəmin yaratmışdır.

Dünya inkişaf etdikcə yüksək təfəkkür mədəniyyəti formalaşdırmaq məsələsi bütün cəmiyyətlərdə prioritet sahəyə çevrildiyi üçün təhsil müasir dövrdə insan həyatının ən önəmli mərhələsi hesab olunur. Müasir dünyanın tələblərini nəzərə alaraq, şagirdlərin idrak fəallığının inkişaf etdirilməsi üçün təhsilin ən aşağı pillələrindən başlayaraq sistemli tədbirlər həyata keçirilməlidir. Bu tədbirlərin ən əhəmiyyətli hissələrindən biri də dərslik siyasətidir.

Azərbaycan Respublikası dövlət müstəqilliyini bərpa etdikdən sonra dünya təcrübəsinə əsaslanaraq təhsilin məzmununda sistemli islahatlar həyata keçirildi. 2008/2009-cu dərs ilindən I siniflərdə yeni təhsil proqramlarına (fənn kurikulumlarına) uyğun hazırlanmış dərslik komplektlərinin tətbiqi həmin istiqamətdə aparılan islahatlardan biridir. Keçirilən islahatlara baxmayaq, dərsliklərlə bağlı hələ də bəzi problemlər öz aktuallığını saxlayır. Bunlardan biri təhsil proqramları ilə dərsliklər arasında uyğunsuzluğun olmasıdır. Yəni dərsliklər nə qədər təkmilləşdirilsə də, hələ təhsil proqramını tam əhatə etmir. Bu da təhsilin öz məqsədlərinə çatmasına maneə törədir. Dərsliklərlə bağlı meydana çıxan bu çətinliklər isə ardıcıl olaraq digər problemlərə səbəb olur. Dərslik təhsil proqramlarının məzmununu ehtiva edən əsas vasitə hesab olunduğu üçün cəmiyyət şagirdlərin bütün nailiyyətlərini və uğursuzluqlarını birbaşa dərsliklərlə əlaqələndirir. Lakin nəzərə almaq lazımdır ki, təhsilə təsir edən tək amil dərslik deyil. Şagirdlərin nəticələrinə yalnız dərsliklər deyil, eyni zamanda müəllimlər, valideynlər, məktəb mühiti, sosial-psixoloji amillər də təsir edə bilər.

Şagirdlərin təhsil nailiyyətlərinə təsir edən amillər çoxdur, lakin bu məqalədə dərsliklərin effektivliyi barədə danışıldığı üçün dərslik amili əsas götürülür. Digər məsələ isə dərsliklərin hazırlandıqdan sonra sınaqdan keçirilməməsidir. Təhsil Nazirliyi tərəfindən dərsliklərin xüsusi meyarlar əsasında qiymətləndirilməsinə baxmayaraq onların sinif mühitində də sınaqdan keçirilməsi vacib hesab olunur. Çünki bu halda istifadə zamanı yarana biləcək problemlər üzə çıxır.

Yuxarıda qeyd olunan problemlər ehtiyat dərsliklərin tətbiqinə zərurəti artırmış və nəticədə ehtiyat dərslik komplektləri hazırlanmışdır.

### Ehtiyat dərslik

Nazirlər Kabinetinin 2017-ci il tarixli müvafiq qərarı ilə ibtidai siniflər üçün riyaziyyat və Azərbaycan dili fənləri üzrə ehtiyat dərslikkomplektlərinin (dərslik, iş dəftəri və müəllimlər üçün metodik vəsait) hazırlanması prosesinə başlanılmış və effektivliyi qiymətləndirilmişdir.

Ehtiyat dərsliklər 3 mərhələli müsabiqə əsasında seçilmiş müəllim və müəllif heyəti tərəfindən hazırlanmış və sınaqdan keçirilmişdir. Aydındır ki, tədris resurslarının istifadəsindən əvvəl onların sınaqdan keçirilməsi təlim materiallarının keyfiyyətini artırmaq üçün mühüm mərhələdir. Ona görə də ölkəmizdə ehtiyat dərsliklərin effektivliyinin qiymətləndirilməsi prosesi həyata keçirilmişdir.

Ehtiyat dərslik vəsaitləri hazır olduqdan sonra respublika üzrə təsadüfi yolla seçilmiş məktəblərdə sınaq təşkil edilmişdir. Dərsliklərin effektivliyini qiymətləndirmək məqsədilə tədqiqatın aparılması üçün eyni məktəbin ənənəvi və ehtiyat dərsliklərin tədris olunduğu siniflərində eksperiment aparılmışdır. Sınaqda iştirak edən şagirdlər ölkənin bütün şagird kateqoriyalarını əhatə etməklə reprezentativ seçim əsasında müəyyən olunmuşdur. Ümumillikdə, ölkəmizin müxtəlif şəhər, rayon və kəndlərini əhatə etməklə 97 məktəbin 123 birinci sinfində 3244 şagirdin təhsili ehtiyat dərslik komplekti əsasında təşkil edilmişdir.

Sınaq zamanı müxtəlif monitorinqlər keçirilmiş, müəllimlərin dərs müddətində rəyləri öyrənilmiş və nəticələrə əsasən dərslik vəsaitinə müvafiq düzəlişlər olunmuşdur. Tədris ilinin sonunda ehtiyat dərsliklərin effektivliyinin qiymətləndirilməsi üçün tədqiqat aparılmışdır.

Ölkə üzrə təsadüfi seçimlə müəyyən edilmiş 97 məktəbdən 51-də ehtiyat dərsliklərin effektivliyinin qiymətləndirilməsi təşkil olunmuşdur. Tədqiqatda eyni məktəbin həm ehtiyat dərslik, həm də ənənəvi dərslik istifadə etmiş şagirdləri iştirak etmişdir. Bu məqsədlə şagirdlər kontrol və eksperiment qrupları üzrə bölünmüşdür. Kontrol qrupa ənənəvi, eksperiment qrupa isə ehtiyat dərslik əsasında təhsil almış şagirdlər daxil edilmişdir. Tədqiqatda ehtiyat dərslikdən istifadə üzrə 53% oğlan, 47% qızdan ibarət, ümumilikdə 1266, ənənəvi dərslikdən istifadə üzrə isə 53% oğlan və 47% qız olmaqla 1272 şagird iştirak etmişdir.Tədqiqat məktəbin bütün siniflərində deyil, təsadüfi seçilmiş konkret siniflərində həyata keçirilmişdir.

Sınaq prosesində məlumatların toplanması üçün Azərbaycan dili və riyaziyyatın müəyyən edilmiş məzmun xətləri üzrə müvafiq kitabçalar hazırlanmışdır. Azərbaycan dili fənni üzrə 2 kitabça (Oxu və yazı; Dil qaydaları) və riyaziyyat fənni üzrə 5 kitabça (Ədədlər və əməllər; Cəbr və funksiyalar; Həndəsə və ölçmə; Statistika və ehtimal) paylanmışdır.

Riyaziyyat fənninə aid beşinci kitabça yalnız ehtiyat dərslik üzrə təhsil alan şagirdlərə təqdim olunmuşdur. Hazırlanan 6 kitabçada (2 Azərbaycan dili və 4 riyaziyyat) şagirdlərin cavablandırılması üçün 15 sual qeyd olunmuş və hər bir sualın növündən asılı olaraq maksimum ballar müəyyən edilmişdir. Riyaziyyat üzrə beşinci sual kitabçası üçün isə 11 sual hazırlanmışdır.

### Tədqiqatın nəticələri

Aparılan tədqiqat göstərir ki, ehtiyat dərsliklərdən istifadə etmiş şagirdlərin riyaziyyat və Azərbaycan dili fənləri üzrə topladıqları orta bal göstəricisi ənənəvi dərsliklərdən istifadə etmiş şagirdlərin topladıqları orta bal göstəricisindən yüksəkdir. Növbəti bölmələrdə hər fənn üzrə nəticələr analiz olunmuşdur.

*Azərbaycan dili üzrə nəticələr*

Azərbaycan dilinin hər iki məzmun xətti üzrə nəticələr sübut edir ki, ehtiyat dərslik istifadə etmiş şagirdlər həmin məzmun xətləri əsas tutularaq hazırlanmış suallara daha yaxşı cavab vermişlər **(Diaqram 1)**.



Diaqram 1.

Diaqram 2-də isə Azərbaycan dili fənni üzrə tədqiqatın regional göstəriciləri əks olunmuşdur. Belə ki, ümumi respublika üzrə Azərbaycan dili fənnindən ehtiyat dərslik komplektindən istifadə etmiş şagirdlərin topladığı orta bal 68.9 olduğu halda, ənənəvi dərslik komplektindən istifadə etmiş şagirdlərin orta göstəriciləri bir qədər az, 59.3-dür. Bakı və regionlardakı məktəblərdə ayrı-ayrılıqda da Azərbaycan dili fənnindən şagirdlərin topladığı orta bal ehtiyat dərsliklər üzrə daha çoxdur. Bakıda təhsil alan şagirdlərin ehtiyat dərslik və ənənəvi dərslik üzrə topladıqları orta bal müvafiq olaraq 76.6 və 70, regionlarda isə müvafiq olaraq 58.5 və 44-dür. Şagirdlərin Bakı və digər regionlarda ehtiyat dərsliklər və ənənəvi dərsliklər üzrə topladıqları bal fərqinin statistik cəhətdən əhəmiyyətli olduğunu qeyd etmək lazımdır. Ona görə də bu nəticəyə gəlmək olar ki, Azərbaycan dili fənni üzrə hazırlanmış ehtiyat dərsliklər ölkə üzrə 1-ci sinif şagirlərinin istifadəsi üçün uyğundur.

**Diaqram 2.** Azərbaycan dili üzrə regional göstəricilər.



Diaqram 2.

*Riyaziyyat üzrə nəticələr*

Ehtiyat dərslikdən istifadə edən şagirdlərin riyaziyyat üzrə orta bal göstəriciləri ənənəvi dərslik istifadə edənlərdən yüksək olmuşdur. Bu fənnin məzmun xətləri və standartları üzrə nəticələrə əsasən Cəbr və funksiyalar, statistika və ehtimal bölmələri üzrə şagirdlərin nəticəsi göstərir ki, ehtiyat dərslik komplektindən istifadə zamanı şagirdlərin bu bölmələri mənimsəməsi daha yüksəkdir (Diaqram 3).

**Diaqram 3.** Riyaziyyatın məzmun xətləri üzrə göstəricilər.



Diaqram 3.

Riyaziyyat fənninin regionlar üzrə nəticələrinə nəzər saldıqda aydın olur ki, respublikada ehtiyat və ənənəvi dərsliklərdən istifadə edən şagirdlərin orta balları müvafiq olaraq 72.7 və 71.1 bal təşkil edir (diaqram 4). Ehtiyat və ənənəvi dərsliklər üzrə təhsil alan Bakı məktəblilərinin tədqiqat zamanı topladıqları ballar arasındakı fərq 5.68 təşkil edir. Digər regionlardakı şagirdlərin ehtiyat və ənənəvi dərsliklər üzrə topladıqları orta bal da Bakı şəhəri üzrə əldə edilən nəticəni inkar etmir. Belə ki, ehtiyat dərslik üzrə orta bal 53.8 olduğu halda, ənənəvi dərslik üzrə toplanan orta bal 44.8-dir.

**Diaqram 4.** Riyaziyyat üzrə göstəricilər



Diaqram 4.

Tədqiqat gostərir ki, ehtiyat dərslik komplektlərinin tədris prosesindəki effektivliyi ənənəvi dərslik komplektləri ilə müqayisədə daha yüksəkdir. Qiymətləndirilmə tədqiqatı başa çatdıqdan və kütləvi istifadəyə qərar verildikdən sonra artıq digər siniflər üzrə də ehtiyat dərslik komplektinin hazırlanması prosesinə başlanılmışdır.

### Nəticə və tövsiyələr

Ehtiyat dərsliklərin effektivliyini qiymətləndirmək üçün həyata keçirilən tədqiqatın nəticələrindən məlum olur ki, qeyd olunan dərsliklərdən istifadə edən şagirdlərin mənimsəmə göstəriciləri daha yüksəkdir. Bu isə həmin komplektlərin kütləvi istifadəsinə şərait yaradır.

Lakin sınaq zamanı məzmun standartları üzrə nəticələrdəki fərq bütün suallar üzrə statistik cəhətdən əhəmiyyətli deyil. Bu, yalnız dərslik komplektinin məzmunu ilə deyil, həmçinin tədris prosesində müəllimlərin qarşılaşdıqları çətinliklərlə və şagirdlərin sosial-iqtisadi vəziyyəti ilə əlaqəli ola bilir. Həmin istiqamətdə müvafiq tədbirlər görülməsi də ehtiyat dərslik komplektinin tətbiqi zamanı qarşıya qoyulan məqsədə çatılması prosesini sürətləndirəcək. Beləliklə, ölkəmizdə dərslik siyasəti ilə bağlı atılan bu yeni addım təhsil sistemi qarşıya qoyulmuş məqsədlərə çatmaqda və bu sahədə yaranmış vacib problemlərin həll olunmasında mühüm addım hesab oluna bilər.

# Haqq işi uğrunda mübarizədə hər zaman qardaş Türkiyənin yanındayıq



Heç bir tarixi və hüquqi əsası olmayan qondarma "erməni soyqırımı" məsələsinin gündəmə gətirilməsi böyük təəssüf hissi doğurur və ondan siyasi təzyiq vasitəsi kimi istifadə olunmasını qəbuledilməz hesab edirik.

AZƏRTAC xəbər verir ki, bunu Mingəçevir Dövlət Universitetinin rektoru Şahin Bayramov deyib.

Rektor vurğulayıb ki, saxtalaşdırılmış məlumatlar və məkrli niyyətlərdən qaynaqlanan belə bir fikrin səsləndirilməsi özünü insan haqları və demokratiyanın keşikçisi, ədalətin və sülhün carçısı kimi göstərən ABŞ-ın strateji müttəfiqi olan Türkiyə ilə münasibətlərinə ciddi zərbə vurur: "Şübhəsizdir ki, təqribən 100 il bundan əvvəlki hadisələrin tarixi kontekstdən çıxarılması və təhrif edilərək siyasiləşdirilməsi hazırda Türk Dünyasının güclənməsindən narahat olan qüvvələrin növbəti təxribatıdır.

Eyni zamanda, yaxın tariximizdə bütün dünyanın gözü qarşısında Xocalıda erməni vəhşiləri tərəfindən azərbaycanlılara qarşı törədilən soyqırımına ədalətli hüquqi qiymət vermədən uydurma bir hadisənin qabardılması qeyri-obyektiv yanaşmanın və ikili standartın bariz nümunəsidir.

Sadə məntiq onu deyir ki, qondarma erməni məsələsi bu gün qüdrətlənən Türkiyəni və möhkəmlənən Türkiyə-Azərbaycan qardaşlığını gözləri götürməyən dairələr üçün siyasi alətdən başqa bir anlam kəsb etmir".

Sevindirici haldır ki, bu gün ən yüksək səviyyədə olan Türkiyə-Azərbaycan birliyi tarixin bütün sınaqlarından uğurla çıxaraq müasir beynəlxalq münasibətlər üçün həmrəylik nümunəsinə çevrilib. 44 günlük Vətən müharibəsində qardaş Türkiyənin daim xalqımızın yanında olması və ölkəmizin haqlı mövqeyini dəstəkləməsi ortaq yeni tariximizin qürurverici amillərindən hesab olunur.

Rektor deyib: "Danılmaz faktdır ki, hazırda Türkiyə regionda sülh və təhlükəsizliyin əsas təminatçılarından, eləcə də iqtisadi inkişafın hərəkətverici qüvvələrindən biri statusunda çıxış edir. Fikrimizcə, Cənubi Qafqazda sülhün bərqərar edilməsi sahəsində əldə olunan uğurlar və təklif olunan yeni əməkdaşlıq formatları mənfur qüvvələrin ciddi narahatlığına səbəb olur.

Lakin əzəli torpaqlarımızın işğaldan azad olunması ilə nəticələnən tarixi zəfərdən sonra, regionda yaranan yeni geosiyasi situasiyada Türkiyə və Azərbaycan faktorunun əhəmiyyətli rolu obyektiv reallıq kimi qəbul edilməlidir.

Möhtərəm Prezidentimizin sözügedən məsələ ilə bağlı ortaya qoymuş olduğu çevik, ədalətli və qətiyyətli mövqe, bir azərbaycanlı olaraq, mənim də sonsuz fəxarət hissləri keçirməyimə səbəb olub".

Qondarma "erməni soyqırımı" məsələsinin gündəmə gətirilməsini şiddətlə qınadığını vurğulayan Mingəçevir Dövlət Universitetinin rektoru Şahin Bayramov haqq işi uğrunda mübarizədə hər zaman qardaş Türkiyənin yanında olduğumuzu bir daha diqqətə çatdırıb.

ADPU - 100

# "Pedaqoji elmlərin nəzəriyyəsi və praktikasının aktual problemləri: müasir yanaşma"

## ADPU-da Magistrantların IV Respublika elmi konfransı



**Azərbaycan Dövlət Pedaqoji Universitetində 27-28 aprel 2021-ci il tarixlərdə onlayn formatda "Pedaqoji elmlərin nəzəriyyəsi və praktikasının aktual problemləri: müasir yanaşma" mövzusunda Magistrantların IV Respublika elmi konfransı keçirilib. Konfrans ADPU-nun 100 illiyinə həsr edilib. Respublika elmi konfransında ADPU, BDU, ADNSU, NDU və digər ali məktəblərin magistrantlarının 450-yə qədər məruzələri dörd bölmədə dinlənilib və müzakirə edilib.**

Konfransı ADPU-nun rektoru professor Cəfər Cəfərov açaraq son illərdə universitetin təhsil və elm sahəsindəki nailiyyətləri barədə məlumat verib. Rektor vurğulayıb ki, ADPU-da magistratura səviyyəsində həyata keçirilən layihələr magistr hazırlığına müsbət təsirini göstərir. Bu layihələr sırasında magistrantların respublika elmi konfransları xüsusi əhəmiyyətə malikdir. Belə ki, magistrantlar elmi tədqiqat işlərinin nəticələrini konfransda tanınmış mütəxəssislərin iştirakı ilə müzakirəyə çıxarmaqla yaxşı təcrübə toplayır ki, bu da magistr dissertasiya işlərinin müdafiəsində özünü xüsusilə göstərir. Magistrantlarımız daim öz üzərlərində çalışmalı, bilik və bacarıqlarını artırmalı, rəqəmsal bilikləri, dünyanın aparıcı xarici dillərini dərindən öyrənməli, vətənpərvər olmalıdırlar. Rektor çıxışının sonunda konfransın işinə uğurlar arzulayıb.

Elm və innovasiyalar üzrə prorektor professor Asəf Zamanov çıxışında ADPU-da elmi-tədqiqat işlərinin səviyyəsinin yüksəldiyini, professor-müəllim heyətinin impakt-faktor göstəricili jurnallarda dərc edilən elmi məqalələrinin sayının artdığını bildirib, magistrantların elmi yaradıcılığına daim diqqət göstərildiyini vurğulayıb. Qeyd edib ki, ADPU-da son dörd il ərzində hər il magistrantların Respublika elmi konfransının keçirilməsi, magistr dissertasiya işlərinin mövzularının elm komissiyasında baxılması, universitetin qabaqcıl professor-müəllim heyətinin magistratura səviyyəsində həm tədris prosesinə, həm də magistr dissertasiya işlərinə rəhbərliyə cəlb edilməsi, magistrantların elmi-pedaqoji və elmi-tədqiqat təcrübəsinin səmərəli təşkili keyfiyyətli magistr hazırlığına öz töhfəsini verir. ADPU-nun təsisçiliyi ilə MAGİSTRANT dövri-elmi jurnalının nəşr edilməsi (jurnalın ilk nömrəsi bu günlərdə elmi ictimaiyyətə təqdim ediləcək) universitetdə aparılan məqsədyönlü fəaliyyətin məntiqi nəticəsidir.

Professor Asəf Zamanov bildirib ki, konfransın elmi bölmələrində mütəxəssislər tərəfindən müsbət qiymətləndirilən məruzələrin tezisləri, həmçinin məqalələr toplu şəklində çap edilib magistrantlara çatdırılacaqdır. A.Zamanov Magistrantların IV Respublika elmi konfransının təşkili ilə əlaqədar işlərin vaxtında icra edilməsində konfransın təşkilat komitəsinin işini yüksək qiymətləndirib, iştirakçılara uğurlar arzulayıb.

ADPU-nun humanitar və sosial məsələlər üzrə prorektoru professor Fikrət Rzayev, Məktəbəqədər təhsilin pedaqogikası kafedrasının müdiri professor Müseyib İlyasov, İbtidai təhsil fakültəsinin dekanı professor Fərrux Rüstəmov, İbtidai təhsilin pedaqogikası və metodikası kafedrasının müdiri dosent Yaqut Rzayeva, Ümumi pedaqogika kafedrasının müdiri professor İramin İsayev çıxış edərək konfransın təşkilini yüksək qiymətləndiriblər.

Konfransın plenar iclasında ADPU-nun magistrantı Zeynəb Abdullayeva "Təhsilin idarə edilməsində menecment işinin elmi-pedaqoji əsasları", ADNSU-nun magistrantı Ruhəngiz Qurbanova "Qeyri-səlis məntiqə əsaslanan PID nəzarətçinin dizaynı", BDU-nun magistrantı Tamilla Babayeva "Lənkəran-Astara iqtisadi rayonunda kənd məskunlaşması və onun inkişafında yaranan problemlər" mövzularında məruzələrlə çıxış ediblər.

Plenar iclasdan sonra konfrans öz işini iki gün ərzində "İnnovasiyalar və təhsilin keyfiyyəti", "Təhsilin təşkili və idarə edilməsi", "Təhsildə sosial-psixoloji xidmət" və "Tədrisin müasir problemləri" bölmələrində davam etdirib.

# Hindistanda təqaüdlü təhsil almaq imkanı

Hindistan Respublikasının Mədəni Əlaqələr Şurası (ICCR) Azərbaycan Respublikası vətəndaşları üçün Hindistanın müxtəlif universitetlərində təhsil almaq məqsədilə təqaüd proqramı təklif edir. Ali təhsilin bakalavriat, magistratura və doktorantura səviyyələri üzrə elan edilən təqaüd proqramı müxtəlif ixtisas istiqamətlərini əhatə edir.

Təqaüd proqramına müraciət üçün son tarix 30 may 2021-ci il nəzərdə tutulub.

Təqaüd proqramı barədə ətraflı məlumatı elan *(http://htp.edu.az/uploads/fileuploads/2021/04/4da04e1052b94afe9ec86bf33438386c.pdf)* vasitəsilə əldə edə bilərsiniz.

# Sloveniyada doktoranturada təqaüdlü təhsil imkanı

Sloveniya Respublikası Azərbaycan vətəndaşları üçün karstologiya sahəsində (geologiya elmləri) doktorantura səviyyəsi üzrə təhsil üçün təqaüd proqramı elan edir.

Təqaüd proqramı barədə ətraflı məlumatı elan *(http://htp.edu.az/uploads/fileuploads/2021/04/e48a2e466eed4653b360cdef0987e68b.pdf)* vasitəsilə əldə edə bilərsiniz.

Qarabağ gündəliyi

# “Müharibədə keçən hər dəqiqəm üçün qürur duyuram”



**Məktəbdə də, səngərdə də fərqlənib. Məktəbdə direktorları, səngərdə komandirləri öyüb onu. Azərbaycan məktəbinin gənc müəllimlərindən biri Azər Məmişzadə Vətən müharibəsində iştirak etdiyi qısa müddətdə döyüş əzmi, dəqiq atəşi ilə döyüşçü dostlarının, silahdaşlarının hörmətini qazanıb. Azər Məmişzadə Vətən müharibəsində göstərdiyi şücaətinə görə ölkə Prezidenti tərəfindən “Füzulinin azad olunmasına görə” və “Xocavəndin azad olunmasına görə” medalları ilə təltif edilib.**

## Azər Məmişzadə: “Yaxınlığımıza düşən minamyot atəşi nəticəsində ağır yaralandım”



### Çavuş Məmişzadəni zenit artilleriya tağımında qurğu komandiri seçdilər

Azər müəllim Yardımlının Vərgədüz kəndindəndir. 1993-cü ilin ilk günündə doğulub. Kənddəki şəhid Arif Bağırov adına tam orta məktəbi bitirib. Şəhidliyin millətin ürəyindəki yerini də elə o vaxtdan öyrənməyə başlayıb. Vətənini, vətən sevgisini oxuduğu məktəbin adındakı “şəhid” ifadəsi, şəhid adıyla yanaşı öyrənib.

Məktəbdə yaxşı oxuyub. Bütün fənlərə maraq göstərib. Ailəsi də onun oxumağını istəyib. Ancaq məktəbi bitirəndə “Öncə Vətən borcu” deyib. Əksəriyyət təhsilini tamamlayıb, sonra hərbi xidmətə gedəndə, o, təhsilini hərbi xidmətdən sonraya saxlayıb. 2011-ci ildə həqiqi hərbi xidmətə yollanıb. Silahla ilk tanışlığı da bu zamana təsadüf edib. Əlinə ilk aldığı silah ağır toplar, hava hücumundan müdafiə qurğuları olub. Goranboyda hərbi xidmət zamanı artilleriya qurğularına elə maraq sarıb ki, onlardan sadəcə istifadə qaydasını yox, həm də sökүb-yığmağı öyrənib. Qurğuların dilindən anlayan əsgər yoldaşlarının əlinə baxmaqla zenit toplarını qısa müddətdə asanlıqla yığıb-açıb. Məktəbdə aldığı təhsil hərbi xidmətdə də onu fərqləndirib: “Təlimatları öyrənib icra etməkdə seçilirdim. Ona görə hərbi xidmətdə önə çıxartmağa əsgər lazım olanda məni çağırırdılar. Komandirim mühüm vəzifələri mənə tapşırırdı”.

Çox keçmədən onun bacarığı qiymətləndirilib. Çavuş Məmişzadə zenit artilleriya tağımında qurğu komandiri olub: “Mənə xidmətdən artıq qulluq keçməyi təklif etdilər. Qalmaq da istəyirdim. Ancaq ailəm razılaşmadı. Məktəbdə yaxşı oxumuşdum, onlar da təhsil almağımı istəyirdilər. Ailəmin israrı ilə 1 il 6 ay sonra xidmətimi başa vurub evə qayıtdım”.

### ADPU məzunu Məlikli kənd məktəbinin müəllimi

2013-cü ilin yanvarında hərbi borcunu tamamlayan Azər Məmişzadə ali məktəbə hazırlaşmağa başlayıb. Hərbi xidmət dövründə unutduqlarını xatırlamaq kifayət idi. O, həmin il iştirak etdiyi ali təhsil müəssisələrinə qəbul imtahanlarında uğur qazanaraq Azərbaycan Dövlət Pedaqoji Universitetinin Cəlilabad filialının tələbəsi olub.Tarix-Coğrafiya müəllimliyi ixtisası üzrə təhsilini başa vurub Müəllimlərin İşə Qəbulu müsabiqəsinə qatılıb və 2017-ci ildə iştirak etdiyi həmin müsabiqədə də seçilib. Onu seçib Yardımlının Məlikli kənd məktəbinə müəllim göndəriblər: “2020-ci ilin aprelində yerdəyişmə müsabiqəsinə qatılaraq iş yerimi Horonu kənd tam orta məktəbinə dəyişdim. Horonu bizim kəndə daha yaxındır. Ancaq artıq yenidən yerdəyişmə zərurəti yaranıb. Çünki indi səhhətimlə əlaqədar çox yeriyə bilmirəm. Hava soyuqlaşanda səhhətimdə problemlərim daha da artır, yeriməyim çətinləşir. Sırıq kənd tam orta məktəbində vakansiya olacağı gözlənilir. Mənim üçün hazırda ən yaxın Sırıq kənd tam orta məktəbidir. Həmin məktəbə yerdəyişmə etmək istəyirəm”.

### Qazi Azər Məmişzadə

Azər müəllimi yenidən şagirdlərindən ayrılmağa məcbur, evi ilə məktəb arasındakı məsafəni azaltmağa sövq edən səbəb isə Vətən müharibəsində aldığı yaralardır: “Başımdan və ayağımdan yaralanmışam. Başımda qəlpələr vardı, qulaq pərdəm zədələnib. Arada eşitməmdə problem yaranır. Uzun müddət müalicə aldım. Hazırda ev şəraitində müalicə davam edir”.

Vətən müharibəsində iştirakına gəlincə, Azər müəllim 2020-ci ilin yayında baş verən Tovuz hadisələrindən sonra Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinə müraciət edib. Onun müraciəti Vətən müharibəsi ərəfəsində dəyərləndirilib. Gənc müəllim hərbi bacarıqlarından istifadə etməyin vaxtı çatdığını göstərən çağırış alanda sevinib. Yüngül əsgər çantası hazırlayaraq dərhal çağırışa müsbət cavab verib. Həmin çantada o gün ən ağır gələn geridə qoyduqları - ata-anası, qardaş-bacısı və 1 yaşlı qızına olan sevgisiydi.

### “Tanımadığımız insanlarla bir-birimizə güvənməyi öyrəndik”

Azər müəllim sentyabr ayının 21-dən hərbi təlimlərə qatılıb və əks-hücum əməliyyatlarının ilk iştirakçılarından olub: “Döyüşə Füzulidən başladıq. İştirak etdiyim hər günü qürurla xatırlayıram. Tarix kitablarından oxuduğumuz müharibə haqqında mətnlərin hər sətrini yaşayırdıq. Bu, elə də asan deyildi, ancaq qürurvericiydi. Bu müharibə mənim üçün döyüşmək üçün can atan qəhrəmanlar deməkdir. Hansı ki, nə qədər danışsaq da, onların qəhrəmanlığını, ürəyindəki vətən sevgisini anlatmağa söz çatmaz. Müharibədə əsl yoldaşlıq gördüm. Yaralı yoldaşına, hətta adını belə öyrənməyə vaxt tapmadığı silahdaşına kömək edənləri gördüm.İnsanın insana sevgisinin şahidi oldum. Tanımadığımız insanlarla bir-birimizə güvənməyi öyrəndik. Müharibədə keçən hər dəqiqəm üçün bu gün qürur duyuram”.

Azər müəllimin keçdiyi döyüş yolu uzun olmayıb. Oktyabrın 4-də yaralanaraq döyüş bölgəsindən uzaqlaşdırılıb: “Füzulidən sonra Xocavənd istiqamətində döyüşlərə qatılmışdıq. Xocavəndlə sərhəddə yerləşən Füzulinin Alıxanlı kəndindəydik. Silah-sursatımızı yeniləmək üçün qayıtmışdıq. Artıq yeni tapşırıq gəlmişdi - döyüşə hazırlaşırdıq. Bu vaxt mövqeyimiz düşmənin artilleriya atəşinə məruz qaldı. Yaxınlığımıza düşən minamyot atəşi nəticəsində ağır yaralandım. Sonradan öyrəndim ki, həmin vaxt postda olan 21 nəfərdən cəmi 6 nəfər sağ qalıb, qalanları şəhid olub”.

### Qəhrəman MÜƏLLİM Azər Məmişzadə

“Hər birimiz layiqincə döyüşməyə əlimizdən gələni etməyə çalışırdıq. Döyüşdən yayınmağa cəhd edən yox idi” , - deyən topçu müəllim aldığı dəqiq nişanlarla düşməndən qisasını alıb, o günə - 21 silahdaşı ilə birgə məruz qaldığı minamyot zərbəsinə qədər. O yaralanıb döyüş meydanından çəkilsə də, silahdaşları onun yolunu davam etdiriblər. Nəticə millətin yanan ürəyinə sərinlik gətirdiyi kimi, 30 illik həsrətə də son qoyub. Qalib Azərbaycan Ordusunun bu böyük zəfərində müəllimlərin əməyi, müəllimlərin canı-qanı, müəllimlərin payı böyükdür. Azərbaycan Ordusu artıq müharibə vəziyyətində deyil. Ancaq Azərbaycan müəllimi üçün savaş bitməyib, sadəcə cəbhə dəyişib. Təhsil səngərində - məktəbdə Azərbaycan müəllimi vətənə qəhrəmanlar yetişdirir. Bilir ki, qəlbinə vətən sevgisi, beyninə qələbənin koordinatlarını ötürərək yetişdirdiyi hər fidan vətən çəpəridir.

**Ruhiyyə DAŞSALAHLI**

# "Vaksinasiyaya alternativ yoxdur"



## *Surxay Musayev:* "Özümüzü və övladlarımızı zamanında qorumağı bacarmalıyıq"

**Çətin bir dönəmdən keçirik... Bir ildən artıqdır ki, həyatımıza çağrılmamış "qonaq" kimi təşrif buyuran koronavirus (COVID-19) pandemiyası ilə üz-üzəyik. Və bu "qonağın" nə vaxt gedəcəyi barədə hələ ki, təsəvvürümüz yoxdur. Ancaq yaşadığımız çətinliklərə baxmayaraq həyat davam edir və o çox maraqlı, rəngarəngdir. Məhz bu dönəmlərdə dövlətimizin diqqətdə saxladığı ən önəmli məsələ də hər şeyə rəğmən əhalinin sağlamlığının qorunub saxlanılması, dünyada tüğyan edən bəladan daha az insan tələfatı ilə çıxmaqdır. Böyüməkdə olan gənc nəslin sağlamlığı və fiziki cəhətdən inkişafı məsələsi isə hər zaman prioritet istiqamətlərdən biri hesab olunur və hazırda xüsusilə aktuallıq kəsb edir. Müsahibimiz Azərbaycan Tibb Universitetinin Tədris-Terapevtik Klinikasının direkroru, Əməkdar elm xadimi, professor Surxay Musayevlə elə yaşadığımız pandemiya şəraitində uşaq, yeniyetmə və gənclərin sağlamlığı ilə bağlı məsələlərə,valideynləri maraqlandıran bir sıra məqamlara aydınlıq gətiririk.**

### Uşaqlar virusa yoluxarsa...

*- Professor, 1 ildən artıqdır ki, bütün dünya ölkələri kimi Azərbaycanda da COVID-19 virusu ilə mübarizə aparılmaqdadır. İnsanlarımız adıçəkilən xəstəliyə tutulur və sağalanlarla yanaşı, çox təəssüf ki, həyatını itirənlər də olur. Bir həkim olaraq bu xəstəliklə bağlı fikirlərinizi bilmək istərdik.*

- Ötən bir il ərzində bu xəstəlik, onun törətdiyi fəsadlar barədə eşitdiklərimiz və ən əsası gördüklərimiz artıq bununla bağlı bizim müəyyən təcrübə əldə etməyimizə imkan yaratdı. Xəstəliyin ölkəmizdə yayıldığı ilk anlardan ölkə rəhbərliyi tərəfindən həyata keçirilən məqsədyönlü tədbirlər, aparılan profilaktik tədbirlər nəticəsində ilk başda koronavirusun çox sürətlə yayılmasının bir qədər qarşısı alınsa da, bir müddətdən sonra dünya ölkələrində olduğu kimi Azərbaycanda da bu virusa yoluxanların sayının artmasını gördük. Və həmin dönəmdə terapevtik pofilli bir klinika olmağımıza baxmayaraq hökumətin qərarına uyğun olaraq təcili şəkildə buranın profilini dəyişərək yoluxucu xəstəliklər üzrə fəaliyyətimizi davam etdirdik. O dövrdən başlayaraq müəyyən mərhələlərdə koronaviruslu xəstələrin müalicəsi ilə məşğul olduq. Koronavirus haqqında bir ildən artıqdır ki, həkimlər, mütəxəssislər tərəfindən ictimaiyyətə onun etioloji səbəbləri, törətdiyi fəsadlarla bağlı məlumatlar verilir, ondan qorunma halları barədə mütəmadi olaraq əhalimiz məlumatlandırılır.

Mən istərdim ki, bir neçə kəlmə uşaq, yeniyetmə və gənclər arasında bu xəstəliyin nə dərəcədə yayılma ehtimalı olduğu barədə söz açım. Bu günə qədər COVID-19 virusunun etioloji səbəbi, yəni, törədicisi məlum olsa da bunun hansı yollarla sürətlə yayılması, orqanizmdə daha hansı fəsadlara yol açması hələ də öyrənilir. Xəstələr var ki, onların birinci növbədə ağciyəri, digərində böyrəklər, mərkəzi-sinir sistemi, o birisində başqa orqanlar zədələnir. Bu xəstəliyin fərqli gedişləri var. Ən çox da rast gəlinən aşağı tənəffüs yollarının, yəni, ağciyərlərin zədələnməsidir.

Uşaqların bu infeksiyaya yoluxması ilə bağlı dünyada müxtəlif statistik rəqəmlər var. Ancaq hesab olunur ki, 15 yaşa qədər uşaqların bu virusa yoluxması hardasa 1faizi keçmir. Bunlar arasında xüsusilə lap kiçikyaşlı uşaqların tutulma ehtimalı daha azdır. Xəstələr içərisində yüksək qızdırmalı-38-39 dərəcə hərarəti olan uşaqlar da olub. Bu xəstəliyin gedişi belədir və 3-4 gün çəkir.15 yaşından kiçik uşaqlar xəstəliyi daha yüngül, qeyd olunan yaşdan yuxarı olanlar isə əksinə nisbətən ağır keçirirlər. Xəstəliyin əsas əlamətləri -bir neçə gün davam edən hərarət, halsızlıq, əzələ-baş ağrıları, öskürək və iştahsızlıq hesab edilir. Əgər uşaqda yüksək temperatur daha bir neçə gün davam edərsə, tənəffüs çatışmazlığı, göyərmə olarsa mütləq həkimə müraciət olunmalıdır.

Bildiyimiz digər məlumatlara görə koronavirusa yoluxan uşaqların 15, 8 faizində heç bir əlamət olmur, 41,5 faizində yüksək qızdırma, 64,8 faizində isə pnevmoniya aşkar olunur. Səhhətində problemlər yaşayanlar, məsələn, böyrək xəstəliyi, hidronefroz və s. olanlar koronavirus infeksiyasını daha ağır keçirir.

### Gənclər arasında yoluxma artsa da xəstəliyi yüngül və simptomsuz keçirirlər

*- Son vaxtlar gənclər arasında koronavirusa yoluxma hallarının artmasının səbəbini nə ilə izah edə bilərsiniz?*

- Bilirsiniz, gənclər arasında yoluxma artsa da, onların immuniteti güclü olduğu üçün xəstəliyi əksər hallarda yüngül və simptomsuz keçirir. Sualınıza cavab olaraq onu deyə bilərəm ki, qış fəsilində gündüzlər qısa olduğu üçün insanlar arasında təmaslar çox az idi. Lakin artıq yaz fəslini yaşayırıq, gənclərimiz evdən kənarda, dəqiq desək bayırda daha çox vaxt keçirirlər və təbii ki, bu zaman təmaslar, ünsiyyət artır. Həmçinin əksər gənclər gigiyenik qaydalara riayət edilməsinə müəyyən qədər səhlənkarlıqla yanaşaraq koronavirusu o qədər də ciddiyə almırlar. Bu isə çox səhv bir yanaşmadır.

Virusdan qorunmaq üçün 3 sadə tələbə əməl olunmalıdır. Mən də həkim kimi onları bir daha xatırlatmaq istəyirəm. Bunlar maska taxmaq, sosial məsafə saxlamaq və gigiyenik qaydalara riayət etməkdir. Bu sahədə artıq qazandığımız təcrübədən çıxış edərək deyə bilərik ki, epidemioloji zəncirin qırılması üçün insanlar arasında təmasların, canlı ünsiyyətin azaldılması hazırda yeganə effektiv vasitədir. Bütün sərtləşdirilmə karantin tədbirləri də məhz buna yönəlib və məsələnin həlli yenə də tələb olunan qaydalara ciddi riayət olunmasından keçir.

Hamı bu virusun dəhşətli olmasının fərqinə varmalıdır. Yaddan çıxarmayaq ki, biz virusa yaxalanacağımız təqdirdə yaxınlarımızı, ailəmizi, bütövlükdə çevrəmizi özümüzlə bərabər təhlükəyə atmış oluruq. Özümüzü, uşaqlarımızı, ətrafımızı maksimum qorumalıyıq. İndi uşaqlarda bu xəstəlik yüngül keçir deyə arxayınlaşmamalıyıq. Ona görə də maska taxmalıyıq.

Bir düşünün ki, siz tibbi maskadan istifadə etmədiyinizə görə virusa yoluxursunuz və o virusu dostlarınıza, ailə üzvlərinizə və yaşlılara keçirirsiniz. Həmin virusa yoluxmuş şəxslər xəstəliyi ağır keçirə bilərlər. Xəstəliyi ağır keçirən şəxslər həyatlarını itirər və ya qalıcı zədə alarlar. Və bu olanların hamısına sizin maska taxmamağınız səbəb olur. Ona görə açıq havada və qapalı məkanlarda xəstəlik bitməyənə qədər maskadan istifadə etmək hər birimizin vətəndaşlıq vəzifəsidir.

Bəzən deyirlər ki, maskayla gəzmək çətindir. Sizi inandırım ki, bu gün bəziləri üçün maska taxmaq nə qədər çətindirsə, süni tənəffüs aparatının borusunun ağciyərlərə yeridilməsi və orada qalması min dəfə bundan da çətindir. Bu cür ağrılı halı yaşamamaqdan ötrü mütləq maska ilə gəzmək lazımdır. Bunun başqa yolu yoxdur. Dünyanın hər yerində belədir.

### Maskadan necə istifadə etmək olar?

*- Bir maskadan neçə dəfə istifadə etmək olar?*

- Bizim taxdığımız maskalar bir neçə saat qoruyuculuq funksiyasını saxlayır. Bir maska 4-5 saatdan artıq qalmalıdır. Bir maskadan bir neçə gün isifadə etmək qətiyyən olmaz. Maska infeksiyanı sutkadan artıq saxlaya bilməz, bu, qeyri-mümkündür. Əksinə, eyni maskadan dəfələrlə istifadə infeksiya mənbəyinə çevrilə bilər. Belə ki, həmin maska ilə gün ərzində müxtəlif yerlərdə olur, ictimai nəqliyyatdan istifadə edirik. Bəlkə də biz bilməyərək koronavirus xəstəliyi olan insanlarla ünsiyyətdə olur, nəqliyyatda bir gedirik. Ona görə bu məsələdə də xüsusilə ehtiyatlı olmaq lazımdır. Maskalar hər gün yenisi ilə əvəzlənməlidir.

*- Ölkəmizdə vaksinasiya prosesi sürətlə aparılmaqdadır. Təhsil işçilərinin peyvəndlənməsi də davam etməkdədir. Vaksinasiya ilə bağlı siz, nə düşünürsünüz?*

- Elə peşə sahələri var ki, onlarda bu xəstəliyə yoluxma riski daha çoxdur. Həkimlər, polis işçiləri, müəllimlər insanlarla daha çox ünsiyyətdə olan belə peşə sahiblərindəndir.

Mən birmənalı olaraq deyim ki, bu gün vaksinasiyaya alternativ yoxdur.- Koronavirusun həyatımızdan tezliklə çıxmasını, əvvəlki normal yaşayışımıza qayıtmaq istəyiriksə vaksinasiya olmalıyıq. Bu gün təklif olunan bir neçə müalicə üsulları xəstələr üçündür. Amma bizə təkcə müalicə ilə kifayətlənməyi düşünmürük, çalışmalıyıq ki, daha çox sayda insanların bu xəstəliyə yoluxmasının qarşısını alaq. Xəstələnməmək üçün isə peyvənd ən optimal çıxış yoludur.

### Orqanizm daim hərəkətdə olmalıdır

*- Bu gün internetin həyatımızdakı rolu danılmazdır. Nəzərə alsaq ki, yaşadığımız pandemiya səbəbindən distant təhsilə keçmişik. Və məhz intetnetin yaratdığı imkanlar sayəsində bu gün övladlarımız təhsildən qalmırlar. Hər gün dərslər, əlavə məlumat axtarışları, biliklər əldə etmək və s. Bu aydındır. Ancaq gəlin baxaq, bu istifadənin müddəti nə qədərdir. Həkim kimi sizin fikirləriniz maraqlıdır.*

- Əslində bu, çox ağrılı və demək olar ki, hər bir müasir ailənin son illər yaşadığı bir problemdir. Xüsusilə isə bu məsələ 1 ildən artıqdır ki, ailələrimizdə daha qabarıq şəkildə özünü göstərməkdədir. Uşaq, yeniyetmə və gənclər bəzən ehtiyac duyulmadığı hallarda belə öz vaxtlarını saatlarla kompüter qarşısında keçirirlər. Bəzən isə uşaqların əlindən telefonu, planşeti almaq müşkülə çevrilir. Etiraf edək ki, evlərdə bu işə nəzarət olduqca zəifdir. Həmin məsələyə bir neçə aspektdən yanaşmaq lazımdır. İnternet xüsusilə uşaqların həm fiziki, həm də psixoloji sağlamlığında ciddi problemlər yarada bilər. Və bu, ilk növbədə onun gələcəkdə sosial mühitlə əlaqələrini zəiflədir. Uşaq özünə qapanır, heç kəslə ünsiyyətdə olmaq istəmir və onda internet asılılığı yaranır.

Bir vaxtlar analar bayırda yaşıdları ilə oynayan övladlarını güclə evə salırdılar. İndi isə tam əksinədir. Övladlarımızı bir qədər kobud desək, evdən çıxara və ya kompüterin qarşısından çəkə bilmirik. Valideynləri ilə hansısa bir yerə, gəzintiyə belə getmək istəmirlər. Evdə saatlarla hərəkətsiz vəziyyətdə olurlar. Uşaqlarımızın gözü əllərindəki telefondan başqa sanki heç nəyi görmür. Hərəkətsizlik, xüsusilə uşaqlarda piylənməyə, görmə qabiliyyətinin zəifləməsinə, onurğa sütununun əyriliyinə, skalioza, mərkəzi-sinir sisteminin pozulmasına və digər müxtəlif patologiyalara yol açır. Bizə müayinə üçün uşaqları gətirəndə görürük ki, skaliozu, kifozu, digər sağlamlıq problemləri var. Həkim olaraq deyim ki, belə bir vəziyyət uşaqların normal inkişafı, gələcək həyatlarını sağlam şəkildə davam etdirmələri üçün çox ciddi təhlükə yaradır. Ürək, qan-damar, sümük dayaq sistemlərində ciddi dəyişikliklər gedir, qeyd etdiyim kimi görmə probleminə gətirib çıxarır. Orqanizmdə maddələr mübadiləsi pozulur. Və sonradan ciddi xəstəliklər meydana çıxır ki, bu da kompüterin arxasında saatlarla oturmağın törətdiyi fəsadların nəticəsidir. Xüsusilə daha kiçikyaşlı, belə deyək körpə uşaqların telefonla oynaması yolverilməzdir.

### Nə etmək lazımdır

Uşaqların onlayn təhsilini nəzərə almaqla, digər vaxtlarda internet qarşısında vaxt keçirməsinə məhdudiyyət qoymaq lazımdır. Görmə qabiliyyətinin zəifləməməsi üçün hər saatdan bir 15-20 dəqiqə fasilə olmalıdır. Valideynlər övladlarının dərsləri istisna olmaqla, internetdən digər məqsədlər üçün istifadəsinə mümkün qədər nəzarəti gücləndirməlidirlər.

Uzunmüddət internet qarşısında vaxt keçirən uşaqlar mütləq karantin qaydalarına riayət etməklə bir qədər açıq havada gəzməli, fiziki hərəkətlər etməlidirlər. Orqanizim daim hərəkətdə olmalıdır.

Vaxtlı-vaxtında həkim müayinəsindən keçmək lazımdır. Vaxtında müraciət, düzgün diaqnoz bizləri bir çox xəstəliklərdən qorumaqda, onların qarşısının alınmasında mühüm əhəmiyyət kəsb edir.

Özümüzü və övladlarımızı anında, eləcə də zamanında qorumağı bacarmalıyıq.

**Samirə KƏRİMOVA**

# Vaksinasiya həm də təhsil məsələsidir

## #TəhsilÜçünVaksinasiya həştəq kampaniyası

Təhsil işçilərinin "COVID-19" əleyhinə vaksinasiyaya daha aktiv qoşulması üçün #TəhsilÜçünVaksinasiya həştəq kampaniyasına start verilib.

Hörmətli təhsil işçiləri, vaksin olunmağınıza dair şəxsi sosial hesabınız üzərindən qeyd edilən həştəqi əlavə etməklə foto və ya mətn paylaşaraq kampaniyada aktiv iştirak edə bilərsiniz.

Bu gün #Vaksinasiya həm də təhsil məsələsidir.




# Gəlin, virusa birlikdə qalib gələk

**Paytaxtla yanaşı, Abşeronda da təhsil işçiləri COVID-19 infeksiyasına qarşı mübarizədə fəal iştirak edirlər. Xırdalan şəhər 5 nömrəli tam orta məktəbdə yaradılan vaksin məntəqəsində olarkən təhsil işçilərinin vaksinasiya prosesini izlədik.**

*Xırdalan Şəhər 2 nömrəli tam orta məktəbin fiziki tərbiyə müəllimi Ramil Qulaməliyev:* "Əyani təhsili heç nə əvəz edə bilməz, buna görə vaksinasiya labüd məsələyə çevrilir. Həmkarlarım kimi mən də peyvənd olundum. İkinci dozanı qəbul etdim. Burada təhsil işçiləri üçün yaradılan şərait mənim çox xoşuma gəldi. Vaksinasiya olunmadan tam dayanıqlı əyani tədrisə keçmək mümkün olmayacaq. Çox yaxşı haldır ki, artıq təhsil işçilərinin vaksinasiyası ölkə üzrə çox yüksək səviyyədə həyata keçirilir. Dövlətimiz tərəfindən aparılan islahatlar prosesin yüksək səviyyədə təşkili üçün geniş imkanlar yaradır. Cəmiyyətimiz bəşəriyyəti cənginə alan bu pandemiya dövründə bir daha əmin oldu ki, ölkə rəhbərliyi üçün birmənalı qaydada insanların sağlamlığı həmişə birinci yerdə olub. Biz hamımız yaxşı bilirik ki, koronavirus pandemiyası başlayandan bu günə qədər Azərbaycan dövləti çox böyük işlər görüb. Mən bir təhsil işçisi kimi sevinirəm ki, müəllimlərimiz bu məsələyə həssaslıqla yanaşırlar. Ümid edirəm ki, birlik və mübarizlik göstərərək tezliklə bu düşmənimizi də məğlub edəcəyik".

*Xırdalan şəhər 5 nömrəli tam orta məktəbin ibtidai sinif müəllimi Səkinə Qafarova:* "Bu gün mən də həmkarlarım kimi vaksin olunmağa gəlmişəm. 2-ci dozanı qəbul etdim. Özümü çox yaxşı hiss edirəm. Birinci dozanı qəbul edəndə də heç bir yan təsirlə qarşılaşmadım. Müəllimlərimiz bunun məsuliyyətini dərk edərək könüllü şəkildə peyvənd olunurlar. Təbii ki, bu bizi sevindirir. Ona görə ki, məktəbdə şagirdlərimizlə birlikdə dərslərimizi keçmək istəyiriksə, peyvənd olunmalıyıq. Gigiyenik qaydalara əməl etməliyik. Gigiyenik qaydalara əməl etməklə yanaşı, gəlin, peyvənd olunaq. Mənə elə gəlir ki, hər bir vətəndaş belə düşünür. İndiyə qədər vaksinasiya olunan müəllimlər arasında halı pisləşən və narahat olanını eşitməmişik. Gəlin, bu virusa birlikdə qalib gələk".

> **"Arzu edirik ki, pandemiya bitsin və ənənəvi təhsilə qayıdaq"**

*Xirdalan şəhər 3 nömrəli tam orta məktəbin texniki işçisi Nigar Novruzova:* "Bu gün mənə "COVİD-19" əleyhinə peyvəndin birinci dozası vuruldu. Hazırda özümü çox yaxşı hiss edirəm. Xəstələnməmək üçün vaksinasiya olunmağımız vacibdir. Bu yoluxucu xəstəlik tanıdıqlarımızın, yaxınlarımızın ölümünə səbəb olur. Virusa son qoymaq üçün gigiyenik qaydalara əməl etməklə yanaşı, peyvənd də olunmalıyıq. Bu bəlanın nəyə qadir olduğunu, insanların sağlamlığına, hətta həyatına son qoyduğunu bilirik. Ona görə də özümə borc bildim ki, peyvənd olunum. Arzu edirik ki, pandemiya bitsin və ənənəvi təhsilə qayıdaq".

Abşeron Rayon Təhsil Şöbəsindən aldığımız məlumata görə, rayonun 40 ümumtəhsil məktəbi üzrə 5645 pedaqoji və texniki heyətinin 70 faizi artıq vaksin olunub.

**Rəşad ZİYADOV**

Azərbaycan Respublikası Təhsil Nazirliyi

# Naxçıvan Dövlət Universiteti

aşağıdakı kafedralarda boş olan vəzifələri tutmaq üçün müsabiqə

## ELAN EDİR

| | | |
|---|---|---|
| 1. Azərbaycan tarixi kafedrası | - dosent | - 1 yer |
| 2.Azərbaycan dili və ədəbiyyatı | - dosent | - 1 yer |
| 3.Biologiya kafedrası | - dosent | - 3 yer |
| 4. Bədən tərbiyəsi və idman kafedrası | - dosent | - 1 yer |
| 5. Dünya iqtisadiyyatı və menecment kafedrası | - dosent | - 1 yer (0.5 şt) |
| 6. Ümumi tarix kafedrası | - dosent | - 1 yer (0.5 şt) |
| 7. Ümumi təbabət və kliniki fənlər kafedrası | -dosent | - 1 yer (0.5 şt) |
| 8. Ümumi riyaziyyat kafedrası | - dosent | - 1 yer |
| 9. Ümumi və nəzəri fizika kafedrası | - dosent | - 1 yer |
| 10. Kimya kafedrası | - dosent | - 1 yer |
| 11. Musiqinin tarixi və nəzəriyyəsi kafedrası | - müəllim | - 1 yer |
| | - baş müəllim | - 1 yer |
| 12. Musiqi təlimi kafedrası | - baş müəllim | - 1 yer |
| 13. Orkestr alətləri və dirijorluq kafedrası | - dosent | - 1 yer |
| 14. Pedaqogika və psixologiya kafedrası | - baş müəllim | - 1 yer |
| 15. Roman-German dilləri kafedrası | - baş müəllim | - 1 yer |
| 16. Təməl tibb fənləri kafedrası | - dosent | - 1 yer (0.5 şt) |
| 17. İngilis dili və tərcümə kafedrası | - baş müəllim | - 1 yer |
| 18. İngilis dili və metodika kafedrası | - baş müəllim | - 1 yer |
| 19. İnformatika kafedrası | - dosent | - 1 yer |
| 20. İqtisadiyyat kafedrası | - müəllim | - 1 yer (0.5 şt) |
| 21. Fortepiano kafedrası | - baş müəllim | - 1 yer |
| | - professor | - 1 yer (0.5 şt) |
| 22. Fəlsəfə və sosial iş kafedrası | - professor | - 1 yer |
| 23. Fənlərin tədrisi metodikası və texnologiya müəllimliyi kafedrası | - baş müəllim | - 1 yer |
| | - dosent | - 1 yer (0.5 şt) |

*Müsabiqə üçün sənədlər bu elan qəzetdə dərc olunduğu gündən bir ay müddətində müvafiq qaydada təqdim edilə bilər.*

**Ünvan:** Naxçıvan şəhəri, Universitet şəhərciyi
**Telefon:** (036) 545-23-66/10-01

**REKTORLUQ**

# Müəllimlərin işə qəbulu müsabiqəsi ilə bağlı ictimai rəy öyrənilib







Müəllimlərin işə qəbulu müsabiqəsi ilə bağlı ictimaiyyətin fikrinin öyrənilməsi, həmçinin prosesin təkmilləşdirilməsi məqsədi ilə sorğu keçirilib.

İctimai rəy öyrənildikdən sonra hazırda müəllim vəzifəsində çalışan şəxslərin yeni tədris ili üzrə müəllimlərin işə qəbulu müsabiqəsində iştirakı üçün şərait yaradılmasına qərar verilib. Həmçinin, müsabiqənin test imtahanı mərhələsinin regionlarda təşkili və vakansiya seçimi zamanı imtahan nəticələrinin toqquşması hallarında ötən ildə tətbiq olunan əmsalların cari ildə də tətbiqi nəzərdə tutulub.

Qeyd edək ki, namizədlərin imtahan nəticələri bir tədris ili ərzində qüvvədə qalacaq.

# Peşə təhsili üzrə dərsliklərin ictimai müzakirəsi təşkil edilir



Peşə təhsili üzrə dərslik təchizatının yaxşılaşdırılması ilə yanaşı mövcud dərsliklərin məzmun və tədris aspektindən təkmilləşdirilməsi üzərində işlər aparılmaqdadır. Bu məqsədlə dərsliklər üzrə ictimai rəyin öyrənilməsi prosesinə başlanılıb.

Geyim üzrə dizayner, dərzi, tikiş maşınlarının operatoru və tikişçi, turizm təşkilatçısı, turizm sahəsində iaşə xidməti üzrə mütəxəssis və mehmanxana inzibatçısı ixtisasları üzrə, ümumilikdə 31 modul dərs vəsaiti *www.trims.edu.az* saytının “İctimai müzakirədə olanlar” bölməsində yerləşdirilib. Sayta daxil olaraq qeyd edilən bölmədə yerləşdirilmiş modulların məzmunu ilə tanış olmaq və xüsusi ayrılmış sahədə irad və təkliflərini yazmaq mümkündür. İctimai müzakirəyə çıxarılmış dərsliklər üzrə rəy və təkliflərin bildirilməsi üçün 15 günlük müddət müəyyən edilib.

Peşə Təhsili üzrə Dövlət Agentliyi elm adamlarını, işəgötürənləri, təhsil işçilərini, valideynləri və bütün maraqlı tərəfləri müzakirəyə çıxarılmış dərsliklərə dair rəy, irad və təkliflərini bildirməyə dəvət edir.

Qeyd edək ki, peşə təhsilinin tədrisin keyfiyyətinin artırılması məqsədilə 2020-2021-ci tədris ilində ilk dəfə olaraq müxtəlif ixtisaslar üzrə dərsliklər dövlət büdcəsi hesabına çap edilərək peşə təhsili müəssisələrinə paylanılıb. Növbəti tədris ilində də dərslik təchizatının yaxşılaşdırılması istiqamətində işlərin genişləndirilməsi nəzərdə tutulub. Agentlik tərəfindən çapı nəzərdə tutulan bütün dərsliklərin ictimai müzakirəyə çıxarılması planlaşdırılır.

# “Əsas həyat bacarıqları” mövzusunda distant təlimlər davam edir




Təhsil İnstitutu UNICEF (BMT-nin Uşaq Fondu) ilə birgə “Fövqəladə vəziyyət şəraitində uşaqlara və yeniyetmələrə məktəb əsaslı psixososial dəstəyin göstərilməsi” adlı layihənin icrasını davam etdirir. Layihə çərçivəsində cəbhəyanı ərazilərdə “Əsas həyat bacarıqları” mövzusunda distant təlimlər keçirilir.

UNICEF tərəfindən hazırlanan “Əsas həyat bacarıqları” proqramının məqsədi cəbhəyanı bölgələrdə təhsil alan yeniyetmələrin gündəlik həyatlarında rastlaşdıqları çətinlikləri aradan qaldırmaq üçün bir sıra bacarıqlara yiyələnmələridir. Belə ki, təlimlər zamanı yeniyetmələrə “Stresin idarə olunması”, “Emosiyaların tənzimlənməsi”, “Özünü sağlam qiymətləndirmə”, “Fəal dinləmə”, “Empatiya”, “Dayanıqlıq” kimi bacarıqların aşılanması, inkişaf etdirilməsi və tətbiqi hədəf olaraq qarşıya qoyulub.

Bərdə, Ağdam və Tərtər rayonlarında növbəti 100 müəllim üçün sözügedən təlimlər 12 akademik saat üzrə davam edir.

Qeyd edək ki, təlimdə iştirak edən müəllimlər tərəfindən aidiyyəti mövzular üzrə şagirdlər üçün məşğələlər keçiriləcək. Məşğələlərin may ayının sonuna qədər yekunlaşdırılması planlaşdırılır.

# Paytaxt məktəblisindən növbəti parlaq qələbə



**Bakı məktəblisi Aydın Süleymanlı "Vladimir Bato Kontiç" turnirində qalib olub.**

**Bakı Şəhəri üzrə Təhsil İdarəsinin tabeliyindəki 249 nömrəli tam orta məktəbin şagirdi olan gənc şahmatçımız Monteneqronun Nikşiç şəhərində keçirilən şahmat üzrə turnirdə böyük uğura imza atıb.**

**Belə ki, A.Süleymanlı 9 turdan 6,5 xal toplayaraq yarışın qalibi olub. İstedadlı məktəbli bu nəticə ilə həm də qrossmeyster balını toplayıb.**

**Qeyd edək ki, İsveçrə sistemi üzrə keçirilən yarışda 6-sı qrossmeyster olmaqla, 20 şahmatçı mübarizə aparıb.**

# Beynəlxalq müsabiqələrin 10 yaşlı qalibi

**Sənətdə özünü təsdiq edən bütün korifeylərin tərcümeyi-hallarına diqqət yetirəndə eyni təkzibolunmaz həqiqətin şahidi olursan. Şairlərin və yazıçıların, bəstəkar və müğənnilərin, rəssam və heykəltaraşların fitri istedadlarının uşaq və yeniyetməlik dövrlərində üzə çıxdığını kimsə təkzib edə bilməz. Bu, ya gen daşıyıcılığı, ya da fərdi istedad cücərtiləri sayəsində baş verir. Ən əsası odur ki, fitri istedad üzə çıxarkən onu inkişaf etdirməyi bacarasan. Valideynlər və ixtisas müəllimləri bu məqamda istiqamətverici rola və ilahi gücə malik olurlar. Bu da həqiqətdir ki, bütün klassiklər, sənət fədailəri, korifeylər parlaq ulduza çevrildən sonra qazandıqları bütün nailiyyətlərə görə məhz bu iki müqəddəs varlıq qarşısında ömürlərinin sonunadək özlərini borclu sayırlar.**

## Mədinə Nurəliyeva: "Mənə olan etimadlarını doğruldacağam"

Mədinə Elçin qızı Nurəliyeva 2011-ci ildə Bakı şəhərində anadan olub. Uşaqlıqdan musiqiyə, idmana və rəsm çəkməyə böyük həvəs göstərib. Kiçik yaşlarından valideynləri qeyri-adi istedadını üzə çıxarmaq üçün onu eyni zamanda rəssamlıq, bədii gimnastikaya və piano məşğələlərinə aparıblar. Piano müəllimi Əfruz Məmmədova da balaca qızcığazın xüsusi istedada malik olduğunu ilk gündən hiss edib. O zaman Mədinənin 5 yaşı olub və hələ məktəbə getmirmiş. 6 yaşı tamam olduqda isə onu 2017-ci ildə Milli Konservatoriya nəzdində İncəsənət Gimnaziyasına aparıblar. Direktor Aytən Əhmədovanın rəhbərliyi ilə keçirilən qabiliyyət imtahanında uğurlu nəticə göstərərək məktəbə qəbul olub. Beləliklə, Mədinə əsas ixtisas müəllimi olan Əfruz Məmmədovanın sinfində fortepiano ixtisası üzrə təhsil almağa başlayıb.

### İlk uğurlar ona qol-qanad verib

Hazırda Mədinə 4-cü sinif şagirdidir. İlk müsabiqədə iştirakı 2-ci sinifdə oxuyarkən baş tutub. Həmin müsabiqə 2019-cu ildə Bakı Musiqi Akademiyası tərəfindən təşkil edilib. İlk sınaq müsabiqəsində ifa tərzi yüksək qiymətləndirilib və o, III yerə layiq görülüb. Daha sonra Bakı Musiqi Akademiyası tərəfindən təşkil olunan növbəti müsabiqədə isə I yeri qazanıb.

2020-ci ildən pandemiya ilə əlaqədar olaraq bütün müsabiqələr onli-ne qaydada keçirilir və bu müddət ərzində Mədinə 6 müxtəlif beynəlxalq müsabiqədə iştirak edərək öz istedad və bacarığını həvəslə nümayiş etdirib. O, Bakı Musiqi Akademiyası tərəfindən təşkil olunmuş "Qarabağ" beynəlxalq incəsənət müsabiqəsində II yerə, "Akademik, milli, caz ifaçılarının birinci beynəlxalq müsabiqəsi"ndə isə diplomant adına layiq görülüb.

### Təhsil aldığı ocağa uğur qazandırıb

Müxtəlif ölkələrdə - Türkiyə, Rusiya, İsveç və İtaliyada keçirilən beynəlxalq müsabiqələrin hamısında Mədinə I yeri tutaraq təmsil olunduğu təhsil ocağına uğur qazandırıb. 2021-ci ildə Rusiyada keçirilən Qara Qarayevin xatirəsinə həsr olunan açıq internet müsabiqəsində də I yerə layiq görülüb.

### Mədinənin bəstəkarlıq qabiliyyəti

Bir müddət sonra ixtisas müəllimi Əfruz Məmmədova Mədinənin istedadının başqa çalarlarını da üzə çıxarıb. Müəllim hiss edib ki, pianoçu qız ifa etdiyi mahnılara öz əlavələrini, notların dili ilə öz ahəngini də qata bilir. Gimnaziyanın direktoru Aytən Əhmədova bu barədə məlumatlı olan kimi dərhal Mədinənin istedadını inkişaf etdirmək məqsədi ilə onun bəstəkar-pianoçu Pikə Axundovanın yanında bəstəkarlıq məşğələlərinə başlamasına şərait yaradır.

### Öz çalışqanlığı ilə seçilib

Beləliklə, cəmi 3-4 ay müddətində bəstəkarlıq dərslərində öz çalışqanlığı ilə seçilən Mədinə bu sahədə də növbəti uğurunu qazanır.



Pikə Axundova ilə kompozisiya fənni üzrə ciddi məşğul olan istedadlı pianoçu İtaliyada keçirilən gənc bəstəkarların internet müsabiqəsində I yerə layiq görülür.

...Mədinə ilə tanışlığımız da elə online şəraitində baş tutdu. Danışıq manerası, suallarımı təmkinlə və sanki bir mütəxəssis prizmasından özünəməxsus tərzdə cavablandırması diqqətimdən yayınmadı. Əslində elə bu, özü də istedadlı pianoçu - bəstəkarın daha bir müsbət göstəricisi idi. Söhbət zamanı Mədinə qazandığı bütün nailiyyətlərə görə istedadına qiymət və onun inkişafına təkan verən müəllimlərinə, təhsil aldığı gimnaziyanın rəhbərliyinə və təbii olaraq sevimli valideynlərinə təşəkkür etdiyini də dilə gətirdi. "Bundan sonra da mənə olan etimadlarını doğruldacağam".

**Sifai SƏFƏROVA**

# İngilis dilini öyrənənlər üçün dərs nümunələri

BRITISH COUNCIL

LearnEnglish Print

## World Oceans Day

**World Oceans Day is a day to think about the extremely important role that the oceans play in all our lives, the dangers that are facing our oceans and the actions we can take to protect them.**



### World Oceans Day

Seventy per cent of our planet is covered by one huge, continuous body of seawater – the ocean.

In 2008 the United Nations recognised World Oceans Day and it has been growing ever since. The day is celebrated in a variety of ways, including special events at aquariums and zoos, beach and river clean-ups, school activities, conservation programmes, art contests and film festivals.

### The importance of our oceans

One of the main aims of the day is to remind people of the important role the ocean plays in our lives. The ocean is home to the majority of plants and animals on Earth, from single-cell organisms to the blue whale. Marine plants provide us with 70 per cent of the oxygen we breathe. The ocean controls the climate, providing heat in winter and cool air in summer. It also provides us with food and medicines as well as transport. No matter where you live on the planet, no matter how far from the sea, your life is dependent on the ocean.

### The problems facing our oceans

The most urgent problem facing the ocean at the moment is plastic pollution. Reducing single-use plastic, including plastic bags and plastic bottles, has been an important theme for World Oceans Day for a number of years. Climate change and rising sea temperatures are also a huge problem. Rising sea temperatures have a direct influence on weather patterns and are seen as partly responsible for an increase in extreme weather conditions. An increase in carbon dioxide is increasing the acid levels of seawater and putting many marine organisms at risk.

### What we can do to help

There are many things you can do on 8 June to join in, to remind people about the importance of the ocean in our lives and to make a difference.

## ACTIVITIES

### 1. Vocabulary

**Match the definitions (a–h) with the vocabulary (1–8).**

| vocabulary | definition |
|---|---|
| 1. to officially recognise | a. a natural gas which is essential to life |
| 2. a clean-up | b. protection of the natural environment |
| 3. conservation | c. to accept that something exists |
| 4. marine life | d. the bigger part of something |
| 5. single-cell organisms | e. plants and animals that live in the ocean |
| 6. majority | f. an organised event to collect rubbish (especially plastic waste) |
| 7. oxygen | g. the smallest living animals |
| 8. climate change | h. the fact that weather patterns are changing around the world |

### 2. True or false

**Are the sentences true or false?**

| | | |
|---|---|---|
| 1. Less than 70 percent of the Earth is covered by seawater. | *True* | *False* |
| 2. Marine plants provide us with 50 per cent of the oxygen we breathe. | *True* | *False* |
| 3. The ocean provides us with food, medicines and transport. | *True* | *False* |
| 4. The biggest problems facing the ocean are plastic pollution and rising sea temperatures. | *True* | *False* |
| 5. Extreme weather conditions are responsible for rising sea temperatures. | *True* | *False* |

**DISCUSSION**

What role does the ocean play in your life? What would you prefer to do to celebrate World Oceans Day?

**ANSWERS**

ACTIVITY 1

1. c; 2. f; 3. b; 4. e; 5. g; 6. d; 7. a; 8. h

ACTIVITY 2

1. False; 2. False; 3. True; 4. True; 5. False

To find more English language activities visit www.britishcouncil.org/learnenglish

© British Council 2019



# "Beynəlxalq Yer Günü"nə həsr olunan tədbir

Aprelin 22-də "Beynəlxalq Yer Günü"nə həsr olunmuş onlayn tədbir keçirilib. Tədbir Təhsil Nazirliyi Respublika Uşaq-Gənclər İnkişaf Mərkəzinin "Yaşıl Şəbəkə" ekoloji hərəkatının ekoklublarının iştirakı ilə baş tutub.

Tədbirin keçirilməsində məqsəd məktəblilərin ekoloji biliklərinin artırılması, uşaq və gənclərin ekoloji hərəkatının genişləndirilməsindən ibarət olub.

Tədbirdə, həmçinin, VI Ekoloji Foruma hazırlıq məqsədilə ekoklub liderlərinin və ekoloji aktivistlərin 10 ekoloji istiqamət - "Yaşıl iqtisadiyyat", "Yaşıl turizm", "Yaşıl aqrar", "Yaşıl ətraf mühit", "Yaşıl elm", "Yaşıl yaradıcılıq", "Yaşıl cəmiyyət", "Yaşıl texnologiya", "Yaşıl şəhər", "Yaşıl liderlər" üzrə təqdimatları dinlənilib, təklifləri irəli sürülüb və müzakirələr aparılıb.

Tədbirdə 100-ə yaxın gənc ekolider iştirak edib.


## "AZƏRBAYCAN MÜƏLLİMİ"

Qəzet 1934-cü ildən çıxır

**Baş redaktor**
Sarvan İbrahimov 538-21-55

**Mühasibatlıq** 539-67-74
**Reklam və elanlar** 539-20-77 (tel./faks)

**Ünvan:** AZ-1100, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə 23 M, Mətbuat Evi, 5-ci mərtəbə

Qəzet "Azərbaycan müəllimi"nin kompüter mərkəzində yığılır və "Azərbaycan" nəşriyyatında çap olunur

Qəzet hər həftənin cümə günü çıxır

**Bank hesabımız**
Azərbaycan Beynəlxalq Bankı Şərifzadə filialı
Kodu: 805142 VÖEN: 9900001881
M/h: AZ 03 NABZ 01350100000000002944
S.W.I.F.T.: IBAZAZ 2X

"Azərbaycan müəllimi" qəzeti redaksiyası
Hesab № AZ80 IBAZ38060019443164986350
VÖEN: 1300397831

**Lisenziya** № 022327, **İndeks:** 0003, **Tiraj** 4140 **Sifariş** 799

**Məsul növbətçi:** O.Mustafayev



# Etibarsız sayılır

**Masallı rayon** Viləş (Kalinovka) kənd tam orta məktəbi 1988-ci ildə bitirmiş Sarıbalayeva Səliqə Əlibala qızına verilmiş 556821 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Göyçay şəhər** S.Vurğun adına İnternat tam orta məktəbi (İnteqrasiya təlimli internat tipli gimnaziya) 2010-cu ildə bitirmiş Əmirova (Rəsulova) Gülər Siyavuş qızına verilmiş B-713232 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**İmişli rayon** Telişli kənd tam orta məktəbi 2013-cü ildə bitirmiş Cəfərov Nuran Yaşar oğluna verilmiş B-254560 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət Neft Akademiyası** (indiki ADNSU) tərəfindən 2011-ci ildə Atamov Araz İmran oğluna verilmiş B-217059 nömrəli bakalavr diplomu və əlavəsi itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət Pedaqoji Universiteti** (keçmiş V.İ.Lenin adına ADPİ) tərəfindən 1987-ci ildə Abdullayeva Rahilə İsrəfil qızına verilmiş HB-003623 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Ç.İldırım adına Azərbaycan Politexnik İnstitutu** tərəfindən 1986-cı ildə Nəbiyev Nurməmməd İmamqulu oğluna verilmiş HB-959826 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Turizm İnstitutu** (Azərbaycan Turizm və Menecment Universiteti) tərəfindən 2012-ci ildə Tahirli Orxan Oktay oğluna verilmiş B-246373 nömrəli bakalavr diplomu və əlavəsi itdiyi üçün etibarsız sayılır.

**2 nömrəli Bakı Baza Tibb Məktəbi** tərəfindən 2001-ci ildə Nuriyeva Vəfa İbrahim qızına verilmiş AB-II-077303 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Qubadlı rayon** Qaralar kənd tam orta məktəbi 2009-cu ildə bitirmiş Qəribov Çingiz Zaman oğluna verilmiş B-634864 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Memarlıq və İnşaat Universitetini** 2011-ci ildə bitirmiş Sədrəddinova Müjgan Etibar qızına 2012-ci ildə verilmiş B-242343 nömrəli fərqlənmə bakalavr diplomu və əlavəsi itdiyi üçün etibarsız sayılır.

**Mingəçevir Tibb Kolleci** tərəfindən 2014-cü ildə Məmmədli Məleykə Əfsər qızına verilmiş AA-040173 nömrəli subbakalavr diplomuna əlavə itdiyi üçün etibarsız sayılır.

**N.Nərimanov adına Azərbaycan Dövlət Tibb İnstitutu** tərəfindən 1980-ci ildə Məmmədov Zakir Ağa Əli oğluna verilmiş EB-280926 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 104 nömrəli tam orta məktəbi 2016-cı ildə bitirmiş Ələsgərov Turqut Fizuli oğluna verilmiş AN-590295 nömrəli tam orta təhsil haqqında dublikat attestat itdiyi üçün etibarsız sayılır.

**Yevlax şəhər** M.Ə.Sabir adına 2 nömrəli tam orta məktəbi 2011-ci ildə bitirmiş Ağalarlı Ülkər Qabil qızına verilmiş A-073960 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Şamaxı şəhər** 1 nömrəli tam orta məktəbi 2015-ci ildə bitirmiş Qədirov Rafiq Ceyhun oğluna verilmiş A-460262 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası** tərəfindən 2000-ci ildə Nurməmmədov Ramiz Vaqif oğluna verilmiş A-033689 nömrəli bakalavr diplomu itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 274 nömrəli tam orta məktəbi 1998-ci ildə bitirmiş Hüseynov Rüfət Əbülfət oğluna verilmiş B-157920 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 252 nömrəli tam orta məktəbi 2020-ci ildə bitirmiş Ayvazov Enes Hafis oğluna verilmiş E-279965 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Goranboy rayon** Borsunlu kənd 2 nömrəli tam orta məktəbi 2008-ci ildə bitirmiş Cabbarova Gülşən Rüstəm qızına verilmiş B-566836 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Beyləqan rayonu** şəhər 2 nömrəli tam orta məktəbi 1996-cı ildə bitirmiş Hüseynova Könül Əli qızına verilmiş A-047517 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Tibb Universiteti** tərəfindən 2008-ci ildə Qarayeva Günay Mücahid qızına verilmiş internatura vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Tibb Universiteti** tərəfindən 2008-ci ildə Qarayeva Aynur Nizami qızına verilmiş internatura vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

**Biləsuvar rayon** Ağayrı kənd tam orta məktəbi 1977-ci ildə bitirmiş Şahbazova Solmaz Kamal qızına verilmiş AZE-074298 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Naxçıvan Tibb Kolleci** tərəfindən 2016-cı ildə Məmmədova Sona İlqar qızına verilmiş AA-072352 nömrəli subbakalavr diplomu itdiyi üçün etibarsız sayılır.

**Gəncə Tibb Məktəbi** tərəfindən 2008-ci ildə Ramazanova Elina Ramazan qızına verilmiş BB-II-065695 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Goranboy şəhər** 2 nömrəli tam orta məktəbi 2007-ci ildə bitirmiş Əmirova (Murquzova) Aytən İlham qızına verilmiş B-419952 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı Biznes Universiteti** tərəfindən 2020-ci ildə Bəbişov Sənan Söhrab oğluna verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 308 nömrəli tam orta məktəbi 2018-ci ildə bitirmiş Babayev Nurlan Tahir oğluna verilmiş E-151458 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Hacıqabul rayon** Talış kənd tam orta məktəbi 2004-cü ildə bitirmiş Əlizadə Əhəd Ağaqardaş oğluna verilmiş B-073354 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 213 nömrəli tam orta məktəbi 2003-cü ildə bitirmiş Behbudov Rail Xanlar oğluna verilmiş B-043634 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı Oksford Məktəbini** 2020-ci ildə bitirmiş Seyidov Hadı Elçin oğluna verilmiş E-285465 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Göyçay rayon** Qaraməryam kənd tam orta məktəbi 2006-cı ildə bitirmiş Abbasova Arzu Oktay qızına verilmiş BN-297303 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Sumqayıt şəhər** 38 nömrəli tam orta məktəbin IX sinfini 1991-ci ildə bitirmiş Eyvazov Qafar Müzəffər oğluna verilmiş A-691132 nömrəli ümumi orta təhsil haqqında şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 286 nömrəli tam orta məktəbi 2001-ci ildə bitirmiş Salamova Nigar Elman qızına verilmiş A-501549 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**95 nömrəli texniki peşə məktəbi** tərəfindən 1982-ci ildə Allaxverdiyev Maqaddin Malıx oğluna verilmiş ГЮ-601350 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Bakı Mühəndislik Universiteti** tərəfindən 2018-ci ildə Nəcəfli Elmin Elşəd oğluna verilmiş C-023640 nömrəli bakalavr diplomu itdiyi üçün etibarsız sayılır.

**Füzuli rayon** Araz Yağlıvənd kənd tam orta məktəbi 2004-cü ildə bitirmiş Quliyeva Sehrinaz Saleh qızına verilmiş B-087701 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Şamaxı şəhər** 5 nömrəli tam orta məktəbin IX sinfini (indiki Şamaxı Avropa Liseyi) 1991-ci ildə bitirmiş Qədimova (Babayeva) Süreyya Mustafa qızına verilmiş A-815280 nömrəli şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Bərdə şəhər** 1 nömrəli tam orta məktəbi 2011-ci ildə bitirmiş Hüseynova Məhsəti Sahib qızına verilmiş A-156681 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Tibb Universiteti** tərəfindən 2000-ci ildə Vəliyeva Qiyafət Vaqif qızına verilmiş AB-I-080803 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Tibb Universiteti** tərəfindən 2004-cü ildə Hüseynov Etibar Pənah oğluna verilmiş AB-I-084536 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Neftçala rayon** 1 nömrəli Mayaq kənd tam orta məktəbi 2011-ci ildə bitirmiş Məmmədova Nərmin Valeh qızına verilmiş A-056364 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Neftçala rayon** Mirqurbanlı kənd tam orta məktəbi 1997-ci ildə bitirmiş Əsədov Rauf Əlimürvət oğluna verilmiş A-203871 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Şirvan şəhər** 9 nömrəli tam orta məktəbi 2005-ci ildə bitirmiş Pənahova Aynur Rövşən qızına verilmiş 232813 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 99 nömrəli tam orta məktəbi 2009-cu ildə bitirmiş Zeynalov Elşən Siyafər oğluna verilmiş B-589312 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 215 nömrəli tam orta məktəbi 2016-cı ildə bitirmiş Bayramov Sənan Bəhram oğluna verilmiş A-513408 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 219 nömrəli tam orta məktəbi 2005-ci ildə bitirmiş Mehdiyeva Sara Rauf qızına verilmiş BN-202466 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 45 nömrəli tam orta məktəbi 1999-cu ildə bitirmiş Əkbərova Səkinə Vəli qızına verilmiş A-309013 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Sumqayıt şəhər** İ.Qayıbov adına 1 nömrəli tam orta məktəbin IX sinfini 2004-cü ildə bitirmiş Mehtiyev Rüstəm Nəbi oğluna verilmiş A-049973 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Oğuz rayon** Xaçmaz kənd 2 nömrəli tam orta məktəbi 2000-ci ildə bitirmiş İsmayılova Aynur İsrail qızına verilmiş A-398931 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.


## ALLAH RƏHMƏT ELƏSİN!

Təhsil Nazirliyinin rəhbərliyi və kollektivi Təhsil İnstitutunun Metodik Dəstək Mərkəzinin direktoru

**NAMİQ NAĞIYEVİN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

---

Təhsil İnstitutunun rəhbərliyi və kollektivi institutun Metodik Dəstək Mərkəzinin direktoru

**NAMİQ NAĞIYEVİN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

---

Şahrza Ağayev, Fərahim Sadıqov və İmran Əbilov Əməkdar artist

**BALOĞLAN ƏŞRƏFOVUN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

# Xaricdə təhsil almaq üçün ən yaxşı ölkələr



## Azərbaycan dünyanın əcnəbi tələbələr üçün cəlbedici 78 ölkəsi arasında yer alıb

Amerika Birləşmiş Ştatlarının və Birləşmiş Krallığın hər il ən çox xarici tələbə cəlb edən ölkələr olduğunu göstərən tarixi meyillərə baxmayaraq, hazırda gənclər Asiyanın perspektivli iqtisadiyyatı olan ölkələri xaricdə təhsil almaq üçün ən yaxşı ölkələr kimi qiymətləndirirlər.

ABŞ-ın “US News & World Report” jurnalının “2021-ci ilin ən yaxşı ölkələri” reytinqində dünyanın əcnəbi tələbələr üçün cəlbedici 78 ölkəsi yer alıb. Reytinqin ilk 10-luğunda aşağıdakı ölkələr yer alıb: 1.Türkiyə, 2.Cənubi Koreya, 3.Birləşmiş Ərəb Əmirlikləri, 4.Misir, 5.İndoneziya, 6.Hindistan, 7.Katar, 8.Braziliya, 9.Səudiyyə Ərəbistanı, 10.Rusiya.

Azərbaycanın təhsil sistemi reytinqdə 39-cu sıradadır. Ölkəmiz əcnəbi tələbələr üçün ən yaxşı ölkələr sıralamasında Qazaxıstan (41-ci yer), ABŞ (42-ci yer), Latviya (44), Litva (46), Niderland (47), Belçika (48), Böyük Britaniya (52), Avstraliya (55), Serbiya (56), Özbəkistan (57), Kanada (59), Bolqarıstan (60), Estoniya (61), Almaniya (67), İsveçrə (68), Çexiya (70), İtaliya (71), Danimarka (74), Fransa (75), İsrail (77), Avstriya (78) kimi ölkələrdən irəlidədir. Əlavə edək ki, ötən il ölkəmiz anoloji reytinqdə 78 ölkə arasında 61-ci olub.

Xaricdə təhsil almaq üçün ən yaxşı ölkələrin reytinqi qlobal sorğu əsasında tərtib olunub. Tədqiqat ölkələri eyni dərəcəli beş atributun toplanmasının nəticələri əsasında sıralayır: mədəni cəhətdən zəngin, tələbə həyatı üçün əlverişli, qonaqpərvər, mədəni məkanlara malik olması, ölkədə universitetə qəbul imkanlarının yüksək olması və keyfiyyətli təhsil verən ölkə kimi tanınması. Reytinq 35 yaşa qədər 6500-dən çox yetkin insan arasında keçirilmiş sorğuya əsaslanır.

*https://www.usnews.com/news/best-countries/best-countries-to-study-abroad*

**Oruc MUSTAFAYEV**



